NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİ

# BEHBUD AĞA ŞAHTAXTİNSKİ VƏ QARS MÜQAVİLƏSİ

63.3(2Az)
B 39

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ

# BEHBUD AĞA ŞAHTAXTİNSKİ VƏ QARS MÜQAVİLƏSİ

*(12 oktyabr 2011-ci ildə Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfransın materialları)*

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

Naxçıvan - 2012

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında 2011-ci il 21 fevral tarixində sərəncam imzalamış, bu sərəncama əsasən müvafiq Tədbirlər Planı təsdiq olunmuşdur. Tədbirlər Planına uyğun olaraq 2011-ci il oktyabrın 12-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinə və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfrans keçirilmişdir.*

*"Behbud ağa Şahtaxtinski və Qars müqaviləsi" kitabına Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfransın plenar iclasının materialları daxil edilmişdir.*

*Naxçıvan-2012, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 88 səh.*

4700000000
053-2012

© "Əcəmi" 2012.

# BEHBUD AĞA ŞAHTAXTİNSKİNİN 130 İLLİK YUBİLEYİ VƏ BEYNƏLXALQ QARS MÜQAVİLƏSİNİN 90-CI İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ KONFRANSDA NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOVUN ÇIXIŞI

Hörmətli konfrans iştirakçıları!

Azərbaycan tarixində xalqın ümummilli maraqları naminə xidmətlər göstərmiş şəxsiyyətlər çoxdur. Onlardan bir çoxunun həyat və fəaliyyəti öyrənilmiş, dərsliklərə salınmış, gənc nəslə nümunə kimi təbliğ olunmuşdur. Tariximizdə elə şəxsiyyətlər də var ki, layiq olduğu qiyməti vaxtında ala bilməmiş, unudulmuş və ya unutdurulmuşdur. Belə şəxsiyyətlərdən biri də Behbud ağa Şahtaxtinskidir.

Behbud ağa Şahtaxtinski kimdir, ictimai-siyasi tariximizdə rolu və xidmətləri nədən ibarətdir? Onun keçdiyi qısa, lakin mənalı həyat yoluna nəzər salsaq, gözlərimiz önündə Azərbaycanın ərazi bütövlüyü uğrunda siyasi və diplomatik mübarizə səngərində daxili və xarici qüvvələrlə çarpışan, azərbaycançılıq uğrunda mübarizə aparan və bu mübarizənin qurbanlarından olan bir insanın - siyasi xadim, diplomat və sözün əsl mənasında həqiqi vətəndaşın obrazı canlanar.

Behbud ağa Şahtaxtinski fəhlə, kontor qulluqçusu və inqilabçı həyatı yaşaya-yaşaya, Azərbaycan naminə mübarizə apara-apara fərdi qaydada təhsillənmiş, öz fitri istedadı sayəsində dövrünün bütöv bir ziyalı nəslinin

önündə gedə bilmişdir.

Heç şübhəsiz ki, Behbud ağa Şahtaxtinski, hər şeydən əvvəl siyasətçi idi. O, diplomatik təhsil almamış və ya diplomatik fəaliyyəti qarşısına məqsəd qoymamışdır. Lakin Azərbaycan ərazisinin parçalanmasına yönəlmiş hərbi və siyasi qəsdlərə qarşı mübarizə sahəsində fədakar fəaliyyət onu peşəkar diplomata çevirmişdi. Milli mənafelər naminə diplomatik fəaliyyətin zəif təşkilindən şikayətlənərək "başqa ölkələrin diplomatları nə qədər fəndgir və qəlizdirsə, bizim siyasətin rəhbərləri bir o qədər tərs və dəymədüşərdir"-deyən Behbud ağa Şahtaxtinski regionda marağı olan dövlətlərin əsrlərlə formalaşmış diplomatiyasına qarşı gənc Azərbaycan dövlətinin milli maraqlarını qoymuş və onu axıradək müdafiə etməyi bacarmışdır.

Qalib gəlmiş yeni sosializm cəmiyyətinin Azərbaycandakı liderlərindən biri olan, yüksək partiya və dövlət vəzifələri tutan Behbud ağa Şahtaxtinski bu quruluşun Azərbaycanda tətbiq olunan bir çox prinsipləri ilə razılaşmır, öz şəxsi həyatını ağırlaşdırır, lakin tutduğu yoldan dönmürdü. Hansı vəzifədə işləməsindən asılı olmayaraq Behbud ağa Şahtaxtinski öz prinsiplərinə sadiq qalmış, milli mənafelər uğrunda çalışmış, Azərbaycanın taleyi ilə bağlı məsələlərdə fəal vətəndaşlıq və vətənpərvərlik mövqeyi tutmuş və həmişə bu mövqedən çıxış etmişdir.

Behbud ağa Şahtaxtinski 1920-ci il avqustun 4-də Rusiya Federasiyası hökumətinin sədri Leninə və xalq xarici işlər komissarı Çiçerinə göndərdiyi məktubda yazırdı: "Naxçıvan diyarının... daşnaklara verilməsi

xalqların özünü təyin prinsipini və Sovet Azərbaycanının hüquqlarını pozur. Naxçıvan diyarının xalqı ağlına gətirməzdi ki, Sovet Rusiyası əhalinin iradəsinə qarşı çıxacaq, diyarı daşnaklara verəcəkdir. Hərçənd ki, onların hakimiyyəti altında nəinki sovet quruluşu məhv edilir, həmçinin daşnak Ermənistanın ərazisində yüzlərlə müsəlman kəndlərinin başına gətirilənlər kimi, əhalinin fiziki mövcudluğuna açıq-aydın təhlükə yaranır. Ümid edirəm ki, Sovet Rusiyası hökuməti mənim bəyanatımı diqqətsiz qoymayacaq və Sovet Azərbaycanının hüquq və maraqlarının pozulmasına yol verməyəcəkdir".

Azərbaycanlıların inqilabdan sonra da ağır şəraitdə yaşaması dövlət və ictimai xadim kimi Behbud ağa Şahtaxtinskini ciddi narahat edirdi. Sosialist inqilabının insanları səfalət və yoxsulluq içində yaşatmaq xatirinə edilmədiyini diqqətə çatdıran görkəmli siyasətçi Azərbaycana qarşı yeridilən ayrı-seçkilik siyasəti ilə barışmır, əhalinin vəziyyətinin kəskin ağırlaşmasının səbəbini Azərbaycanda yeridilən "sovet siyasəti"ndə görür və bunu inqilabın rəhbəri Leninə bəyan edirdi ki: "Öz taxılı ilə yaşamış Azərbaycan indi çörəksiz qalıbdır. Ac-yalavac Gürcüstan və Ermənistanın kifayət qədər taxılı vardır. Azərbaycan əhalisi əvvəlcə belə fikirləşirdi ki, Bakıdakı sovet siyasəti yerli hakimiyyətdə olanların işidir. O, Moskvaya inanırdı. Lakin burada da tezliklə ümidsizliyə düçar oldu... Belə bir hal müsəlmanlara məyusedici təsir bağışladı ki, Rusiya yalnız Azərbaycana aid məsələləri Ermənistanla müzakirə edir, Azərbaycan hökumətinin isə bu danışıqlardan xəbəri olmur".

Açıq-aşkar görünür ki, Behbud ağa Şahtaxtinski Azərbaycanla bərabərhüquqlu münasibətlərin tərəfdarı olmuş, Sovet Azərbaycanının hüquq və maraqlarının pozulmasına, ziyalıların həbsinə, dini qaydaların və çoxəsrlik adət-ənənələrin nəzərə alınmamasına etiraz etmiş, bütün bunların Moskvaya olan inamın itirilməsi ilə nəticələndiyi qənaətinə gəlib çıxmışdır. Moskvaya inamın itirildiyini isə ən yüksək səviyyədə və xüsusi vurğu ilə bildirmək hər siyasətçinin, ələlxüsus da, region partiya rəhbərinin işi deyildi. Bunun üçün dönməz iradə, prinsipiallıq və qətiyyət lazım idi.

Behbud ağa Şahtaxtinskinin bütün siyasi, diplomatik və publisistik fəaliyyətindən azərbaycançılıq qırmızı xətlə keçir. O, nə etmişdirsə, Azərbaycan naminə etmişdir.

Ötən əsrin əvvəllərində siyasi publisistikanın ən yaxşı nümunələrini yaradan Behbud ağa Şahtaxtinski ictimai-siyasi təsir vasitəsi kimi mətbuatın rolunu düzgün qiymətləndirmiş, milləti oyatmaq, milli-mənəvi yaddaşı bərpa etmək üçün publisistik fəaliyyətdən bir vasitə kimi faydalanmışdır. O, 1918-ci ildə "Azərbaycan" qəzetində dərc etdirdiyi "Həyatın əks sədaları" məqaləsində milli mədəniyyətin inkişaf etdirilməsinin nə üçün vacib olduğunu əsaslandıraraq yazmışdır: "Özünəməxsus mədəniyyətə malik olmadan, millət müstəqil ola bilməz".

Ötən əsrin əvvəllərindəki qarışıq dövr, gərgin və birmənalı olmayan siyasi fəaliyyət praktikası belə bir həqiqəti ortaya qoyurdu ki, ideyaların və xalqların mübarizəsində daha yüksək mədəniyyət və elmi güc

qalib gəlir. Məhz buna görə mənsub olduğu xalqın inkişafı və tərəqqisi üçün çalışan Behbud ağa Şahtaxtinski təhsil şəbəkələrinin genişləndirilməsi, hətta xalqa böyük təsir gücünə malik olan ruhanilər üçün xüsusi seminariyaların, fəhlələr üçün təhsil kurslarının yaradılması vacibliyini irəli sürür, qeyd edirdi ki, təhsillə bağlı tədbirləri yubanmadan həyata keçirmək lazımdır. Çünki "indi belə vəziyyət yaranıbdır ki, əgər tərbiyə və təhsil işi lazımi səviyyəyə qaldırılmasa, millətin nəinki siyasi, həm də fiziki mövcudluğu təhlükə altına düşə bilər". Bu mülahizə və baxışlar, xalqın təhsillənməsi ilə bağlı gördüyü işlər Behbud ağa Şahtaxtinskini ictimai fikir tariximizdə özünə yer tutmuş böyük Azərbaycan maarifçiləri ilə bir sıraya qoyur.

Bütün həyatı boyu haqq və ədalətə üstünlük verən Behbud ağa Şahtaxtinski məhz bu səbəbdən istər siyasi xadim, istərsə də diplomat və publisist kimi Azərbaycana və onun Naxçıvan Muxtar Respublikasına qarşı aparılan əsassız ərazi iddialarının aradan qaldırılmasına çalışmışdır. Xalqımızın vətənpərvər oğlu Azərbaycan Kommunist Partiyasında və mərkəzi hökumətdə rəhbər vəzifə tutmuş ermənilərin təzyiqi ilə 1920-ci il dekabrın 1-də Bakı Sovetinin iclasında Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi barədə elan olunmuş bəyanatı kəskin hiddətlə qarşılamış, ədliyyə komissarı kimi üzvü olduğu hökumətin qərarının əleyhinə çıxaraq Naxçıvanda mitinqlər yolu ilə xalqı ayağa qaldırmış, əhaliyə həqiqəti çatdıraraq demişdir ki, əgər o, bu qərar qəbul olunarkən Bakıda olsaydı, ona etiraz edər və mane olardı. Siyasi və diplomatik gedişlər edərək həmin dövrdə imzalanmış

Gümrü müqaviləsinin şərtlərini biləkdən qabardan və bu müqaviləni Bakı Sovetində səslənmiş qərara qarşı qoyan Behbud ağa Şahtaxtinski verilən qərarın hüquqi qüvvəyə malik olmadığını bəyan etmiş, çıxış yolunu xalqın birliyində və azad iradənin ifadəsi kimi referendum keçirilməsində görmüşdür. Behbud ağa Şahtaxtinski tərəfindən mərkəzi hökumətlə razılaşdırılmadan Naxçıvanın ərazi mənsubiyyəti ilə bağlı 1921-ci ilin yanvarında keçirilən referendum xalqımızın tarixi taleyində mühüm rol oynamış, qədim Naxçıvan torpağı Azərbaycan ərazisi kimi qorunaraq saxlanmışdır. Qeyd etmək lazımdır ki, əgər Naxçıvanda keçirilən 1921-ci il referendumu olmasaydı, Naxçıvanın muxtariyyət məsələsi gündəlikdən çıxarılacaq, Moskva və Qars müqavilələrində öz əksini tapa bilməyəcəkdi. Bu referendum siyasi tariximizdə Behbud ağa Şahtaxtinski qətiyyətinin və diplomatik məharətinin parlaq nümunəsi kimi qalacaqdır.

43 illik mübarizələrlə dolu qısa, lakin mənalı həyatında Behbud ağa Şahtaxtinski heç nə etməsəydi belə, xalqımızın tarixi taleyində mühüm rol oynayan Moskva və Qars beynəlxalq müqavilələrinin imzalanmasında göstərdiyi vətənpərvərlik və siyasi uzaqgörənlik onun adını Azərbaycanın görkəmli şəxsiyyətləri ilə bir sırada qoymağa tamamilə əsas verir. Qars müqaviləsi dünən olduğu kimi, bu gün də, gələcəkdə də Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir.

Ümummilli liderimiz Heydər Əliyev beynəlxalq Qars müqaviləsinin və onun müəlliflərindən biri olan

Behbud ağa Şahtaxtinskinin tariximizdəki yerini və rolunu yüksək qiymətləndirərək demişdir. *"Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir...." "Kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalıdırlar və tariximizə daxil olmalıdırlar. Qars müqaviləsinin altında Behbud ağa Şahtaxtinskinin imzası vardır".*

Hazırda Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında ümummilli liderimizin tövsiyyəsi əsas götürülərək xalqımızın milli maraqları uğrunda mübarizə tarixinin araşdırılması, bu sahədə xidmətləri olmuş görkəmli şəxsiyyətlərin həyatının və fəaliyyətinin öyrənilməsi ilə bağlı ardıcıl tədbirlər görülür.

Həmin tədbirlərin davamı olaraq keçirilən Behbud ağa Şahtaxtinskinin anadan olmasının 130 illik yubileyinə və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfransı açıq elan edirəm.

***

1. **«Behbud ağa Şahtaxtinskinin dövlətçilik fəaliyyəti və siyasi mübarizəsi»** mövzusunda çıxış üçün söz Naxçıvan Dövlət Universitetinin rektoru akademik İsa Həbibbəyliyə verilir.

2. **«Behbud ağa Şahtaxtinskinin diplomatik fəaliyyəti və Naxçıvan məsələsi»** mövzusunda söz Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin sədri akademik İsmayıl Hacıyevə verilir.

3. **«Behbud ağa Şahtaxtinskinin jurnalistlik fəaliyyəti və publisistikası»** mövzusunda söz Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Əbülfəz Quliyevə verilir.

4. **«Beynəlxalq Qars müqaviləsi və Naxçıvanın muxtariyyət statusu»** mövzusunda çıxış üçün söz tarix üzrə fəlsəfə doktoru Emin Şıxəliyevə verilir.

5. **«Behbud ağa Şahtaxtinski haqqında yeni araşdırmalar»** mövzusunda çıxış üçün söz Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin elmi işçisi Musa Quliyevə verilir.

6. **«Beynəlxalq Qars müqaviləsinin tarixi əhəmiyyəti»** mövzusunda çıxış üçün söz tarix üzrə fəlsəfə doktoru İbrahim Kazımbəyliyə verilir.

***

Hörmətli konfrans iştirakçıları!

Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinə və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfransın plenar iclası başa çatdı.

Konfrans bundan sonra öz işini bölmələr üzrə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsində və Naxçıvan Dövlət Universitetində davam etdirəcəkdir.

Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmiş Behbud ağa Şahtaxtinskiyə və beynəlxalq Qars müqaviləsinə həsr olunmuş konfrans bir daha göstərdi ki, bu məsələ elmi və siyasi fikir tariximizdə xüsusi aktuallıq kəsb edir. Ona görə də alim və tədqiqatçılarımız xalqın milli mənafeyi, real fakt və sənədlər əsas götürülməklə bu sahəni bir daha yenidən işləməli və tədqiq etməlidirlər.

Konfrans onu da göstərdi ki, Behbud ağa Şahtaxtinskinin ictimai-siyasi, diplomatik və publisistik fəaliyyəti, eləcə də beynəlxalq Qars müqaviləsi, onun imzalandığı tarixi şərait hələ uzun illər bundan sonra da tədqiqatçıları özünə cəlb edəcək, müzakirə mövzusu olacaq və araşdırılacaqdır.

Bu mənada konfransın böyük elmi əhəmiyyətini qeyd edir, tədbirin təşkilatçılarına təşəkkürümü bildirir, konfransın bölmələr üzrə bundan sonrakı işinin də məhsuldar, elmi araşdırmalar baxımından nəticəli olacağına inanır və bu sahənin tədqiqatçılarına uğurlar arzulayıram.

Sağ olun!

## BEHBUD AĞA ŞAHTAXTİNSKİNİN DÖVLƏTÇİLİK FƏALİYYƏTİ VƏ SİYASİ MÜBARİZƏSİ

Məlum olduğu kimi, görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinski (1881-1924) XX əsrin əvvəllərində özünün də əsas qurucularından biri olduğu bolşevik hökuməti və Sovet Rusiyasından Azərbaycana qarşı ərazi iddialarından yararlanmaq istəyən erməni qruplaşdırılması tərəfindən həyata keçirilmiş dövlət terroru sayəsində aradan götürülmüşdü. Buna görə də keçmiş Sovet hakimiyyəti sonrakı dövrlərdə bolşevik hakimiyyəti çərçivəsində olsa belə, ölkəsi və xalqı üçün böyük xidmətlər göstərmiş Behbud ağa Şahtaxtinskinin fəaliyyətini daim arxa plana keçirmiş adının və xidmətlərinin unutdurulması istiqamətində dövlət səviyyəsində uzun illər planlı şəkildə iş aparmışdır. Bunun nəticəsidir ki, Azərbaycanda Sovet Hakimiyyətinin mövcud olduğu bütün dövr ərzində Behbud ağa Şahtaxtinskiyə həsr edilmiş ayrıca bir məqalə belə yazıl-mamışdır. Azərbaycan Sovet Ensiklopediyasının onuncu cildində Behbud ağa Şahtaxtinski haqqındakı yığcam informasiya cəmi 10-12 cümlədən ibarətdir (1, s. 479 ). Bu görkəmli dövlət xadiminin yalnız bir fotoşəkli dövrümüzə gəlib çıxmışdır. Bütün bunlar keçmiş sovet hökumətinin Behbud ağa Şahtaxtinskiyə qarşı manqurtlaşdırma niyyətini həyata keçirmişdir. Yalnız ulu öndərimiz, görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri

vəzifəsində çalışarkən XX əsrin axırlarının çətin və mürəkkəb şəraitində Ermənistanla mübarizənin ağır dövrlərində məşhur Qars müqaviləsinin Naxçıvanın toxunulmazlığı ilə əlaqədar müddəalarını beynəlxalq aləmə çatdırarkən vaxtilə bu mühüm əhəmiyyətə malik dövlət sənədini Azərbaycan tərəfdən imzalamış Behbud ağa Şahtaxtinskinin də adı yenidən gündəmə gəlmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə milli-tarixi yaddaşın bərpası istiqamətində həyata keçirdiyi genişmiqyaslı tədbirlər tariximizdə böyük izlər buraxmış şəxsiyyətlərin həyatı, mübarizəsi və xidmətlərinin müstəqillik dövründə yenidən öyrənilib xalqa çatdırılmasına zəmin hazırlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun cəmiyyət həyatının digər sahələrində olduğu kimi, bu istiqamətdəki böyük uzaqgörənliklə apardığı məqsədyönlü işlər, tutduğu qəti mövqe Naxçıvanın Azərbaycana və dünyaya bəxş etdiyi görkəmli şəxsiyyətlərin, elm, mədəniyyət örnəklərinin diqqət mərkəzinə çəkilməsi, təzədən, dərindən və əsaslı şəkildə öyrənilməsi, yüksək səviyyədə tanıdılaraq təbliğ olunması ilə nəticələnmişdir. Həmin istiqamətdə həyata keçirilən kompleks tədbirlər siyasi-ideoloji mənada Azərbaycanın yeni nəsillərinin Vətənə və dövlətə sədaqət, millilik və vətənpərvərlik ruhunda tərbiyə olunması kimi ali vəzifələrin icrasına uğurla xidmət göstərməkdədir.

Bütün bunlara görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun «Görkəmli

dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illiyinin keçirilməsi haqqında»kı 21 fevral 2011-ci il tarixli sərəncamı bu böyük şəxsiyyətin həyatı və fəaliyyətinin yenidən ictimai-siyasi mühitin və tarixşünaslığın diqqət mərkəzinə çəkilməsinə və gündəmə çıxarılmasına meydan açmışdır.

Naxçıvan mahalının qədim Şahtaxtı kəndində 1881-ci ildə anadan olan Behbud ağa Şahtaxtinski ilk ibtidai təhsilini də burada almışdır. Gənc yaşlarında Bakı şəhərinə gedərək fəhlə hərəkatına qoşulmuş, «Hümmət» bolşevik təşkilatının üzvlərindən biri olmuş, hətta 1918-ci ildən etibarən bu təşkilata rəhbərlik etmişdir.

Behbud ağa Şahtaxtinski Naxçıvan Qaçqınlar Komitəsinə rəhbərlik etmiş, Naxçıvan ölkəsi Xalq Komissarları Sovetinin Sədri vəzifəsində çalışarkən regionda sabit həyatın formalaşması və erməni işğalından xilas yollarında böyük işlər həyata keçirmişdir.

- Azərbaycanda sovet hakimiyyəti qurularkən aşağıdakı dövlət vəzifələrinə irəli çəkilmişdir:
- Azərbaycan Respublikasının RSFSR-dəki Fövqəladə və Səlahiyyətli nümayəndəsi vəzifəsini yerinə yetirmişdir.
- Xalq Ədliyyə Komissarı vəzifəsində çalışmışdır.
- Naxçıvan ölkəsi üzrə Komissar təyin olunmuşdur.
- Naxçıvan SSR Xalq Komissarları Sovetində sədrlik etmişdir.
- Fəhlə-Kəndli Müfəttişliyi Nəzarəti Komissarı

olmuşdur.

- Azərbaycan SSR Xalq Komissarı Soveti Sədrinin müavini işləmişdir.
- Nəhayət, Zaqafqaziya Ali Arbitraj Məhkəməsinin üzvü olmuşdur.

Behbud ağa Şahtaxtinski 30 may 1924-cü ildə Tiflisdəki evində erməni-bolşevik qruplaşması tərəfindən güllələnmişdir.

Göründüyü kimi, Behbud ağa Şahtaxtinski əsasən mühüm dövlət vəzifələrində çalışmış, «Hümmət» bolşevik partiyasının sıravi üzvlüyündən Azərbaycan Xalq Komissarları Soveti Sədrinin müavini vəzifəsinədək yüksəlmiş, görkəmli dövlət xadimi və böyük diplomat kimi tanınmışdır.

Dövlət xadimi kimi Behbud ağa Şahtaxtinskini xarakterizə edən əsas keyfiyyətlər aşağıdakılardan ibarətdir:

1. Behbud ağa Şahtaxtinski Azərbaycan Respublikasının Rusiya Federasiyası daxilində müstəqil fəaliyyətinin təmin olunması üçün səy göstərmişdir. Proletariatın rəhbəri kimi təqdim olunan V.İ.Leninə yazdığı məktublarda qaldırdığı məsələlər ölkənin həmin formatdakı dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə xidmət edirdi. Azərbaycan Sovet Respublikası ilə RSFSR arasındakı dövlətlərarası sazişin hazırlanmasında və imzalanmasında rəsmi olaraq Azərbaycan tərəfdən təmsil olunan Behbud ağa Şahtaxtinski İttifaq dövlətindən respublika üçün imkan daxilində daha geniş səlahiyyətlərin əldə olunmasına çalışmış, bir çox hallarda məqsədinə

çatmağı bacarmışdır.

2. Azərbaycan Bolşevik hökumətində Xalq Komissarları Sovetinin sədri, görkəmli yazıçı Nəriman Nərimanovun mövqeyini müdafiə etmiş, milli müstəqillik uğrunda apardığı mübarizəyə dəstək vermişdir. Beləliklə, Mirzə Davud Hüseynov, Əliheydər Qarayev və başqaları kimi Azərbaycanın RSFSR qarşısında tam təslimçilik siyasətini həyata keçirən Azərbaycan bolşevik rəhbərləri qrupundan fərqli olaraq İttifaq çərçivəsində müstəqillik üçün cidd-cəhdlə çalışan Nəriman Nərimanovun başçılıq etdiyi cəbhənin ön sıralarında getmiş bu xəttin daha da möhkəmlənməsinə şəxsi töhfələr vermişdir.

3. Azərbaycan SSR Xalq Komissarlar Soveti Sədrinin müavini kimi Behbud ağa Şahtaxtinski eyni zamanda, böyük əksəriyyəti yazıb-oxumaq belə bacarmayan, imza əvəzinə mürəkkəbə bulaşmış barmağını ağ kağıza basan, «inqilaba sədaqət» dalğası havasında hakimiyyətə gəlmiş Azərbaycan bolşevik hakimiyyətində yüksək dünyagörüşü və böyük təşkilatçılıq qabiliyyəti ilə fərqlənmişdir. Buna görə də Xalq Komissarları Sovetinin iclaslarında fəal iştirak edərək gənc Azərbaycan Sovet Respublikasının daha da inkişaf etdirilərək möhkəmləndirilməsinə xidmət etmişdir. Bir çox hallarda o, Xalq Komissarları Sovetinin iclaslarına sədrlik etmək səlahiyyəti qazanmışdır. Xalq Komissarları Sovetinin B.Şahtaxtinskinin sədrliyi ilə keçən 29 iyun 1921-ci il, 2 iyul və 6 iyul 1921-ci il tarixli iclaslarında Azərbaycan üçün əhəmiyyətli olan mühüm qərarlar qəbul edilmişdir (2, s. 258-265). Bun-

dan başqa, sədrlik etdiyi iclasların stenoqramlarını sonradan oxuyub, üzərində zəruri düzəlişlər etməsi onun yüksək siyasi dünyagörüşünə malik olduğunu bir daha nəzərə çarpdırır. Məsələn, Behbud ağa Şahtaxtinski Xalq Komissarları Sovetinin 29 iyun 1921-ci il tarixdə keçirilmiş iclasının stenoqramında qırmızı qələmlə «kapitalist» sözünü pozub, əvəzinə «firma» ifadəsini yazmışdı (2, s. 259). Azərbaycan Aksosionerlər Cəmiyyətinin sədri Koqanın Astarada kağız-ağac emalı, konserv və vaqon istehsalı zavodları tikmək üçün Avropaya ezam edilib kapitalistlərlə danışıq aparması barədəki mətndə «kapitalist» sözünün «firmalarla» ifadəsi ilə əvəz edilməsi sadəcə texniki bir düzəliş olmayıb, Behbud ağa Şahtaxtinskinin bolşevikcəsinə Qərbə düşmən kimi deyil, tərəfdaş münasibəti bəslədiyini mənalandırır. Belə meyil ozamankı bolşevik hakimiyyətində çox az müşahidə oluna bilərdi. Bundan əlavə, stenoqramları oxuyub düzəlişlər etməsi həm də Behbud ağa Şahtaxtinskinin dövlət işinə bəslədiyi məsuliyyətli münasibəti də əyani şəkildə əks etdirir.

4. Behbud ağa Şahtaxtinski Rusiya mərkəzi hökumətinin əli ilə Azərbaycana yerləşdirilmiş erməni bolşevik qrupunun, xüsusən bu antiazərbaycançı qrupun Anastas Mikoyan, Mirzoyan, Sərkis və başqaları kimi nümayəndələrinin respublikanın mənafelərinə zidd olan hərəkətlərinin qarşısının alınmasına, onların fəaliyyət dairəsinin məhdudlaşdırılmasına çalışmışdır. Bu vətənpərvər şəxsiyyətin V.İ.Leninə yazdığı məktublar respublikadakı vəziyyətin obyektiv Nərimanovçu dərki olduğu üçün Mərkəzdə aydın və real fikrin formalaşdırılmasına

112933
M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

xidmət etmişdir. Bu isə həm də respublikadakı erməni qruplaşmasının yaratdığı süni gərginliyin qarşısının alınmasına, önünə sədd çəkilməsinə şərait yaratmışdır. Xüsusən, yazılmış məktublardakı N.Nərimanova dair fikirlər sadəcə bu böyük şəxsiyyətə verilən qiymətin ifadəsi olmayıb, həm də Azərbaycan xalqının ozamankı rəhbəri ətrafında gərgin hadisələrin cərəyan etdiyi bir vaxtda müsbət ictimai rəyin möhkəmləndirilməsinə xidmət etmişdir» (3).

5. Azərbaycanın ərazi bütövlüyü uğrunda, torpaqlarımızın qorunub saxlanılması yollarında apardığı genişmiqyaslı işlər və həyata keçirdiyi cəsarətli tədbirlər Behbud ağa Şahtaxtinskinin dövlətçilik fəaliyyətinin və siyasi mübarizəsinin ana xətlərini təşkil edir. O, həmişə Azərbaycan dövlətinin rəhbərlərindən biri olaraq Zaqatala-Balakən və Qarayazı bölgələrinə dair Gürcüstanın, Qazax bölgəsinin aran və dağlıq hissələrini ələ keçirmək üçün Ermənistanın iddialarına qarşı çıxmış, bu məsələlər ətrafında Rusiya Federasiyası rəhbərliyi qarşısında qəti, ağıllı və məntiqli problemlər qaldırmaqdan çəkinməmişdir. Eyni zamanda, Behbud ağa Şahtaxtinski Azərbaycanın ərazi bütövlüyünün Gürcüstanın və Ermənistanın xeyrinə pozulması üçün səy göstərən Stalin-Beriya-Orconikidze-Mikoyan xəttinə qarşı barışmaz mövqe tutmuşdur.

6. Naxçıvan məsələsi Behbud ağa Şahtaxtinskinin dövlətçilik fəaliyyətində və siyasi mübarizəsində xüsusi yer tutur. O, Naxçıvan məsələsinin həllinə Azərbaycanın ərazi taleyinin ən mühüm problemi kimi baxmışdır. XX əsrin sonlarında Naxçıvanın erməni işğalından

xilas edilməsi görkəmli dövlət xadimi Heydər Əliyevin, keçən əsrin əvvəllərində isə həmin böyük və məsuliyyətli işin həyata keçirilməsi Behbud ağa Şahtaxtinskinin adı ilə bağlı olmuşdur.

Bu, ölkənin ərazi bütövlüyü ilə bağlı məsələni həyata keçirmək üçün Behbud ağa Şahtaxtinski bir sıra mühüm və vətəndaşlıq cəsarəti nümunəsi olan tədbirləri həyata keçirmişdir.

- Azərbaycan KP MK Bakı Komitəsi 1 dekabr 1920-ci il tarixli iclasında Naxçıvanın Ermənistan SSR-ə verilməsi barədəki qərarını bəyan etdikdən sonra Behbud ağa Şahtaxtinski dərhal icazəsiz, gizli yolla Naxçıvana gəlmiş, yerli əhalinin bu qərarın əleyhinə həyəcan qaldırması istiqamətində iş aparmışdır. Düşünülmüş riskli addımlar atmaq, vətən və millət işini bolşevik hakimiyyətində mövqe tutmaqdan üstün hesab etmək Behbud ağa Şahtaxtinskinin siyasi fəaliyyətinin səciyyəvi xarakteridir.
- Naxçıvanın Azərbaycanın tərkibində qalıb-qalmaması məsələsinin demokratik yolla həlli üçün 1921-ci ilin əvvəlində referendumun keçirilməsinə nail olmuşdur. Referendumda əhalinin 90 faizi Naxçıvanın Azərbaycanın tərkibində saxlanmasının lehinə səs vermişdir. Naxçıvan referendumu Behbud ağa Şahtaxtinskinin siyasi fəaliyyətində əsas hadisələrdən biridir və azərbaycançılığa xidmətin böyük ifadəsidir.

Beynəlxalq əhəmiyyətə malik olan 1921-ci ilin Moskva və Qars müqavilələrində Naxçıvanın statusu

ilə bağlı məsələlərin həlli üçün çevik və səmərəli diplomatik fəaliyyət göstərmiş, nəhayət, bu müqavilələrdə Naxçıvanın muxtariyyət statusu əldə etməklə Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınması təmin edilmişdir. Halbuki bu məsələ ətrafında ciddi bir mürəkkəb vəziyyət yaranmışdı. Kreml rəsmiləri, xüsusən Stalin və Orcenikidze ermənipərəst mövqe tutaraq A.Mikoyanın tərəfində durmaqla Naxçıvanı Ermənistana vermək üçün səylər göstərirdi. Bu məqsədlə Azərbaycan tərəfin nümayəndəsi Behbud ağa Şahtaxtinskinin diplomatik bacarığı mühüm rol oynamışdır. O, hələ Moskva müqaviləsi ətrafında danışıqlar aparılarkən müzakirələrə qoşulmuş, yaranmış mürəkkəb vəziyyətdə «Naxçıvanın ya Azərbaycana və ya Türkiyəyə birləşdirilməsi, yaxud müstəqil bir hökumət olaraq qalması haqqındakı təkliflərini» (4, s. 67) Kreml rəhbərliyi və Türkiyə heyəti ilə gündəliyə çıxarmışdır. Təklif formatının hazırlanması B.Şahtaxtinskinin uğurlu diplomatik bacarığa malik olduğunu göstərir. Çünki Behbud ağa Şahtaxtinski yaxşı başa düşürdü ki, Naxçıvanın Türkiyəyə birləşdirilməsi ideyasına Kreml rəsmiləri razı olmayacaqlar. Çünki məsələnin bu cür həlli Ermənistanın Naxçıvandan birdəfəlik gözünü çəkməsi demək olacaqdı. Həm də bu təklif Erməni daşnak hökumətini də razı salmayacaqdı. Heç Türkiyə tərəfinin də Naxçıvana ərazi iddiası yox idi. Əksinə, Atatürk Hökuməti Naxçıvanın Azərbaycanda qalmasına çalışırdı. Ona görə də Naxçıvanın Türkiyəyə verilməsi Behbud ağa Şahtaxtinski tərəfindən bu regionun Ermənistana verilməməsi üçün düşünülərək meydana

atılmış məsələ idi. Bu, ona görə idi ki, Ermənistan Naxçıvanın Türkiyəyə verilməkdənsə, Azərbaycanın tərkibində qalmasına razı olsun. Deməli, Behbud ağa Şahtaxtinskinin Naxçıvanın Türkiyəyə verilməsi məsələsini ortaya atması diplomatik gediş idi. Nəhayət, uzun müzakirələrdən sonra Behbud ağa Şahtaxtinskinin düşünülmüş gedişləri əsasında 1921-ci ilin martında qəbul olunmuş Moskva müqaviləsində Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusunda təmsil olunması öz əksini tapmışdır. Moskva müqaviləsinin üçüncü maddəsində deyilirdi: «Razılığa gələn hər iki tərəf bu müqavilənin 1C əlavəsində göstərilən sərhədlərin içərisində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu protektoratlığı heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir» (5, s.26).

Türkiyənin Qars şəhərində 13 oktyabr 1921-ci il tarixdə imzalanmış məşhur Qars müqaviləsində həmin müddəa B.Şahtaxtinskinin səyləri nəticəsində daha da möhkəmləndirilmiş şəkildə özünün təsdiqini tapmışdır.

Bütün bunlar Behbud ağa Şahtaxtinskinin dövlətçilik fəaliyyətinin və siyasi mübarizəsinin əsas gedişləri və mühüm nəticələridir.

B.Şahtaxtinski görkəmli dövlət xadimi, böyük siyasətçi və mahir diplomat kimi Azərbaycan tarixinə daxil olmuşdur. Lakin bolşevik mühitində milli mövqedən çıxış etməsi, İttifaq yönlü müstəqillik tərəfdarı olması, geniş dünyagörüşü və yüksək təşkilatçılıq qabiliyyəti Behbud ağa Şahtaxtinskiyə qarşı əks

cəbhənin paxıllıq və düşmənçiliyinə də rəvac vermişdir. Ona qarşı iddialar əsasən aşağıdakı üç istiqamətdə idi:

1. Behbud ağa Şahtaxtinskini sovet hakimiyyətindən əvvəl bolşevik partiyasının sıralarında olmamaqda, daha çox isə heç bir partiya özəyində qeydiyyatda durmamaqda ittiham edirdilər. Hətta bu barədə rəsmi dairələrdə müvafiq qərar qəbul edərək onu bolşevik partiyası üzvlüyündən xaric etmişdilər. Halbuki Behbud ağa Şahtaxtinski XX əsrin əvvəllərindən etibarən «Hümmət» bolşevik təşkilatının üzvü olmuş və 1918-ci ildən başlayaraq Azərbaycan hümmətçilərinə rəhbərlik etmişdi. Sovet hakimiyyəti qurularkən isə o, ardıcıl olaraq ezamiyyətlərdə və rəsmi səfərlərdə olmuş, sadəcə olaraq yaradıcılarından biri və fəal üzvü olduğu partiyanın qeydiyyatına yenidən düşmək barədə fikirləşməmişdi. Bu məsələdə fürsətdən istifadə edən antinərimanovçu qrupla Anastas Mikoyan başda olmaqla Azərbaycanda yerləşdirilən erməni bolşevik qrupu çox israrlı mövqe tuturdu.

Bütün bunlardan xəbərdar olan Nəriman Nərimanovun şəxsi müdaxiləsindən sonra böyük çətinliklə Behbud ağa Şahtaxtinskinin əvvəlki stajı saxlanılmaqla partiya sıralarına bərpa edilməsi mümkün olmuşdu.

2. Əleyhdarları və paxılları Behbud ağa Şahtaxtinskini varlanmaq məqsədilə vəzifəsindən sui-istifadə etməkdə günahlandırmağa səy göstərirdilər. Geniş miqyasda düşünülmüş şəkildə guya onun Fəhlə-Kəndli Nəzarəti Komissarı kimi səlahiyyətlərindən istifadə

edərək apardığı yoxlamalar zamanı qiymətli daş-qaş əşyalarını, müxtəlif növ bahalı malları mənimsəməsinə dair şayiələr yayılırdı. Bu kampaniyanın təşkilatçılarının əsas niyyətlərindən biri də Nəriman Nərimanovla Behbud ağa Şahtaxtinskinin arasını vurmaq, onların siyasi hakimiyyətdəki birliyini parçalamaqdan ibarət idi. Həmin məqsədlə öyrədilmiş, qabaqcadan hazırlanmış adamların danosları, yuxarı təşkilatlara ünvanlanmış yalan və böhtan dolu məktubları təşkil olunmuşdu.

Halbuki Behbud ağa Şahtaxtinski ölkədə baş vermiş çevriliş nəticəsində yaranmış xaosdan, qarışıqlıqdan istifadə edərək qənimət toplayanların əleyhinə idi. Onun 20 sentyabr 1920-ci ildə Sovet Rusiyasının rəhbəri Vladimir İliç Leninə göndərdiyi məktubda bu cür halları törədənlər açıq şəkildə tənqid olunmuşdu. Məktubda deyilirdi: «Azərbaycan Xalq Komissarları Sovetinin sədri yoldaş Nərimanov iki həftə bundan əvvəl öz səlahiyyətlərindən istifadə edərək rekvizisiyanı dayandırmağı və artıq əmlakı könüllü surətdə təhvil verməyi elan etmək məcburiyyətində qalmışdır. Çox böyük nəticələr əldə edilmişdir. Əhalinin özü dəfələrlə qəbul müddətini uzatmağı xahiş etmişdir. Lakin bu, qeyri-inqilabi addım təsiri bağışladı. İşi Bakı İcraiyyə Komitəsinə qaldırdılar ki, orada da Nərimanovun əmri ilə ləğv edildi və alt paltarlar da daxil edilməklə ev əşyalarının aman verilmədən müsadirə edilməsi haqqında qərar qəbul olundu. Əslində onu görmək çətin deyildi ki, şüursuz ünsürlər evlərə soxularaq araşdırmadan müsəlman qadınlarının

tumanlarında brilyant axtaracaq, qulaqlarından sırğalarını dartıb qoparacaqlar» (6).

Əsl həqiqət belə olduğu halda, Behbud ağa Şahtaxtinskinin vəzifəsindən sui-istifadə edərək qənimət ələ keçirməsi barədə yayılan şayiələrin kimdən və haradan qidalandığını başa düşmək çətin deyildir.

3. Düşmənçilik səviyyəsində namərdcəsinə amansız mövqe tutan siyasi rəqibləri Behbud ağa Şahtaxtinskini ailə-məişət məsələsində ləkələmək üçün də tələ qurmağı bacarmışdılar. Bu məqsədlə ikinci dəfə ailə qurduğu diş həkimi Ayna Əhmədbəyova faktorundan istifadə edən bədhaxları onu mənəvi cəhətdən sarsıtmaq qərarını vermişdilər. Fikrimizcə, Behbud ağa Şahtaxtinskinin Ayna Əhmədbəyova kimi təsadüfi adamla ailə qurması işinin təşkili onun əleyhdarlarının hazırladığı planın tərkib hissəsi idi. Ayna Əhmədbəyova – Ağa Axundov planı Behbud ağa Şahtaxtinskini süni şəkildə rüsvay etmək üçün düşünülmüş tədbir idi. Bu məsələdə rəqibləri Ayna Əhmədbəyovadan yuxarı təşkilatlara, rəsmi orqanlara biabırçı məktublar yazdırmaq baxımından istifadə edirdilər. Bundan başqa, bacısının əri, ticarət işləri ilə məşğul olan, rəsmi dairələrin əlaltısı funksiyasını yerinə yetirən Ağa Axundovla Ayna Əhmədbəyovanın münasibətləri barədə yayılan şayiələr Behbud ağa Şahtaxtinskiyə vurulan ağır zərbələr idi.

Bütün çətinliklərə baxmayaraq Behbud ağa Şahtaxtinski ailə məsələsi ətrafında ona qarşı yönəldilmiş ittihamların hamısını rədd edə bilmiş, özünün yüksək mənəvi simasını, şəxsiyyətinin bütövlüyünü qoruyub

saxlamağı bacarmışdır. Bu mərd insanın, parlaq şəxsiyyətin uydurulmuş mürəkkəb vəziyyətdən çıxmaq üçün seçdiyi yol, yəni mətbuat vasitəsilə baş verənlərə aşkar şəkildə aydınlıq gətirmək və qurulmuş süni oyunlarla geniş ictimaiyyəti tanış etmək üsulu Behbud ağa Şahtaxtinskinin açıq və aydın mənəviyyatının saflığını təsdiq etməyə şərait yaratmışdır. Bu məqsədlə o, rəsmi dövlət mətbuat orqanı olan «Bakinskiy raboçiy» qəzetində «Müsəlman həyatının təməllərini kimlər dağıdır» adlı məqalə dərc etdirmiş, baş verən bütün məsələlərə münasibətini geniş ictimaiyyətin nəzərinə çatdırmışdır. Artıq qeyd olunduğu kimi, məqalə Behbud ağa Şahtaxtinskinin pak və təmiz vicdanının səsi, mənəvi əzablarının əks-sədasıdır. Ailə-məişət zəminində yaradılmış qalmaqallara, ona qarşı yönəldilmiş şər və böhtanlara cavabın ifadəsi kimi meydana çıxmış həmin məqalə əslində Behbud ağa Şahtaxtinskinin üzvü, qurucusu olduğu bolşevik cəmiyyətinin daxili çürüklüyünün, siyasi-mənəvi böhranının real təsvirindən ibarətdir (7). Məqalədə öz əksini tapmış aşağıdakı mətləblər Behbud ağa Şahtaxtinskinin bolşevizmə münasibətini aydın şəkildə ifadə edir: «Bu böyük cəmiyyətin görkəmli üzvlərinin tam düşkünlüyü, son həddə çatmış əxlaqsızlığı və alçaqlığı müsəlman dünyasının ən ucqar guşələrində partlayışa səbəb olmalıdır. Bu cinayətkarların üzvü olduqları «yüksək cəmiyyət» müsəlman xalq kütləri üçün həqarət, dəhşət və nifrət predmeti olmalıdır. Müsəlman həyatının təməllərini kimlər dağıtdığı onlar üçün şübhə doğurmamalıdır» (8).

Fikrimizcə, məqalədəki «müsəlman aləmi» sözü XX əsrin əvvəllərindəki bolşevik hakimiyyəti dövrünün real Azərbaycan həyatı mənasını ifadə edir. Müəllif işlətdiyi «yeni cəmiyyət» sözləri ilə bolşevik rejiminə, ən azı isə bu rejimin azğınlaşmış nümayəndələrinə ünvanlanmışdır.

Bütün bunlar göstərir ki, Behbud ağa Şahtaxtinskinin 30 may 1924-cü il tarixdə yaşadığı mənzildə öldürülməsi heç də indiyədək yazıldığı kimi özünə qarşı qəsd hadisəsi olmayıb, siyasi motivlərlə bağlı olan terror hadisəsidir. Əvvəla, hər hansı bir şəxsin özünə 4 dəfə dalbadal atəş açması fiziki cəhətdən mümkün deyildir (9). İkincisi, Behbud ağa Şahtaxtinskinin özünə qəsd etməsi üçün ciddi bir əsas yox idi. O, qətlə yetirilməsindən xeyli əvvəl Ayna Əhmədbəyovanı boşayaraq ailə münaqişəsi ilə yaranmış qalmaqallara son qoymağı bacarmışdı.

Vəzifə etibarilə aşağı salınması da ciddi ictimai-siyasi hadisələrin axarında yetişib formalaşmış, bişib möhkəmlənmiş Behbud ağa Şahtaxtinskini məyus etsə də, sarsıda bilməzdi. Doğrudur, 1921-ci ildən etibarən Q.Orcenikidzenin Leninə və Stalinə göndərdiyi teleqramda deyildiyi kimi, «Nərimanovun qrupu mühasirəyə alınmışdı», lakin bu qrupun üzvlərinin müqavimətini sındırmaq asan iş deyildi.

Fikrimizcə, Behbud ağa Şahtaxtinski Stalin-Beriya-Orcenikidze xəttinin planı əsasında bu məsələdə çox maraqlı olan erməni bolşevik qruplaşmasının əli ilə və ya onların əlaltıları vasitəsilə qətlə yetirilmişdir.

Arxiv sənədlərində və dövri mətbuat materialla-

rında da Behbud ağa Şahtaxtinskiyə qəsd törədilməsi duyula bilir. Belə ki, Behbud ağa Şahtaxtinskiyə vaxtında təcili yardım göstərilməmişdi. Bundan başqa, onun dəfni dövlət xadiminə layiq səviyyədə təşkil olunmamışdı. Behbud ağa Şahtaxtinskinin cənazəsi Tiflisdəki Mixaylovski xəstəxanasından qaldırılmışdı. Bu münasibətlə heç bir mərasim keçirilməməsindən başqa, həm də dəfndə Zaqafqaziya və ya Azərbaycanın tanınmış dövlət adamlarından heç kim iştirak etməmişdi. Rəsmi bolşevik mətbuatında Azərbaycan bolşeviklərinin liderlərindən biri olmuş bu görkəmli dövlət xadimi haqqında məsul şəxslərin imzaladığı nekroloq verilməmişdi. Az sonra məzarının yerinin unutdurulması və it-bata salınması da Behbud ağa Şahtaxtinskinin qətlə yetirilməsinin izini itirmək məqsədi daşımışdır. Azərbaycan Kommunist Hökuməti fəaliyyətinin 70 ili ərzində Behbud ağa Şahtaxtinskinin adının və xidmətlərinin tarixdən silinməsi, unutdurulması üçün mümkün olan bütün tədbirləri həyata keçirmişdi. Yalnız ulu öndər Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra haqq öz yerini tapmağa başlamışdır. Ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik dərslərinin işığında meydana çıxan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun «Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin anadan olmasının 130 illik yubileyinin keçirilməsi haqqında»kı 21 fevral 2011-ci il tarixli sərəncamı əslində bu böyük siyasi xadimə dövlət səviyyəsində rəsmi olaraq verilən həqiqi siyasi bəraətin ifadəsidir. Ali

Məclisin Sədrinin sərəncamının əsasında keçirilən genişmiqyaslı tədbirlər, çap edilən kitablar və məqalələr, sənədli filmin çəkilməsi Behbud ağa Şahtaxtinskinin xatirəsinin əbədiləşdirilməsi, həyatı və fəaliyyətinin, irsinin öyrənilib xalqa çatdırılması baxımından atılan əhəmiyyətli addımlardır. Görkəmli dövlət xadimi, böyük diplomat və vətənpərvər şəxsiyyətin xidmətləri əsl ümumxalq ehtiramına layiqdir.

**İsa HƏBİBBƏYLİ**
Naxçıvan Dövlət Universitetinin
rektoru, akademik

## *ƏDƏBİYYAT*

1. Azərbaycan Sovet Ensiklopediyası, X cild. Bakı, 1987, səh.479
2. Azərbaycan İnqilab Komitəsi və Xalq Komissarları Soveti iclaslarının protokolları (çapa hazırlayanı A.Paşayev). Bakı, "Çaşıoğlu", 2009.
3. İsa Həbibbəyli. Behbud ağa Şahtaxtinskinin Leninə məktubları. "Şərq qapısı" qəzeti, 6 oktyabr 2011-ci il, № 187 (20.345)
4. Ali Fuat Cebisoy. Moskva xatirələri. Türkiyə, İstanbul, "Vatan" nəşriyyatı, 1955.
5. Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, rus, türk və fransız dillərində). Naxçıvan, "Əcəmi", 2004, 139 s.
6. Behbud ağa Şahtaxtinskinin Leninə məktubu. ARPİİSSR, fond 1, siyahı 1, saxlanma vahidi 2 a, vərəq 24.
7. İsa Həbibbəyli. Açıq məhkəməyə dəvət, yaxud bolşevizmi

ittiham. "Şərq qapısı" qəzeti, 12 oktyabr 2011-ci il, №191 (20.349)

8. Behbud Şahtaxtinski. Müsəlman həyatının təməllərini kimlər dağıdır. «Бакинский рабочий» qəzeti, 22 iyun 1923-cü il, №137 (865).
9. İsa Həbibbəyli. Behbud ağa Şahtaxtinski: xidmətləri və aqibəti. "Azərbaycan" qəzeti, 19 mart 2011-ci il, № 62 (5752)

# BEHBUD AĞA ŞAHTAXTİNSKİNİN DİPLOMATİK FƏALİYYƏTİ VƏ NAXÇIVAN MƏSƏLƏSİ

Ölkəmiz dövlət müstəqilliyini bərpa etməsinin 20-ci ildönümünü əldə etdiyi böyük nailiyyətlərlə qeyd edir. Müstəqilliyimizin bizə bəxş etdiyi ən mühüm üstünlüklərdən biri tariximizin qaranlıq səhifələrinə işıq salmaq, tarixi hadisələrin və görkəmli tarixi şəxsiyyətlərin həyat və fəaliyyətləri ilə bağlı öyrənilməmiş səhifələrini üzə çıxarmaqdan ibarətdir. Belə tarixi şəxsiyyətlərdən biri də görkəmli siyasi və dövlət xadimi, diplomat, jurnalist və publisist kimi geniş fəaliyyət göstərən, keçən əsrin 20-ci illərində bolşevizm ideyalarına inanaraq mübarizə aparan, fəaliyyətini və diplomatik səylərini ölkəmizin milli maraqları və ərazi bütövlüyü uğrunda mübarizəyə həsr edən Behbud ağa Şahtaxtinskidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2011-ci il 21 fevral tarixli sərəncamına uyğun olaraq Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi qeyd edilir.

Xalqımızın siyasi tarixində oynadığı mühüm rola baxmayaraq, nə bu görkəmli dövlət xadiminin yaşadığı illərdə, nə də müstəqilliyimizə qədərki dövrlərdə onun haqqında obyektiv söz deyilməmiş, tədqiqat aparılmamış, heç bir əsər yazılmamış və xalqımıza tanıdılmamışdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra bir sıra tarixi hadisələrə və tarixi şəxsiyyətlərə diqqət artırılmış və bunlar tədqiq edilməyə başlanılmışdır. Naxçıvan Muxtar Respublikası

Ali Məclisinin Sədri Vasif Talıbovun «Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında» sərəncamı (9) Şahtaxtinskilərlə bağlı üçüncü sənəddir ki, bu da Şahtaxtinskilərə göstərilən diqqət və qayğının ən yüksək ifadəsidir. Tariximizdə ilk dəfə olaraq görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi həmişə uğrunda mübarizə apardığı, düşmən əlinə keçməsinə imkan vermədiyi Naxçıvanda qeyd olunur. Bu, Behbud ağa Şahtaxtinskinin haqqıdır ki, qədirşünaslıq göstərən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu haqqı ona və xalqımıza qaytarır. Bütün bunlara görə Muxtar dövlətin rəhbəri Vasif Talıbova respublika ziyalıları adından dərin minnətdarlığımızı bildiririk.

Qeyd olunduğu kimi, Behbud ağa Şahtaxtinskinin fəaliyyət istiqaməti geniş və çoxcəhətli olmuşdur. Diplomatik fəaliyyət onun fəaliyyət istiqamətlərindən biridir və bununla o, bu gün minnətdarlıqla xatırlanır. Behbud ağa Şahtaxtinskinin heç bir diplomatik təhsili, heç orta və ali təhsili də olmamışdır. Lakin onun fitri istedadı və həyatda qazandıqları hər cür təhsil səviyyəsindən yüksəkdə dayanır.

Behbud ağanın yaşadığı mürəkkəb geosiyasi şərait, qarşılaşdığı hadisələr, Azərbaycanın milli mənafeyi və ərazi bütövlüyü uğrunda apardığı mübarizələr onu məcburən diplomat etmişdir. Onun ən yüksək səviyyələrdə danışıqlar aparması, yazışmaları, məktub və teleqramları, görüşləri yetkin diplomatın fəaliyyətindən xəbər verir.

Behbud ağa Şahtaxtinski öz mövqeyi, öz dəsti-

xətti ilə seçilən mahir və uzaqgörən diplomat idi. Tarix onun bu keyfiyyətlərini dəfələrlə təsdiq etmişdir. O, bolşeviklərin Şərq və Qafqaz siyasətinə münasibət bildirmiş və bu istiqamətdə öz təkliflərini irəli sürmüşdü. B.Şahtaxtinski mərkəzə xəbərdarlıq edirdi ki, bu sahədə səhvlər buraxılarsa, Şərqdəki vəziyyət bizim üçün pisləşə bilər. O, Rusiya ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin qurulması prinsiplərini təklif edirdi. Onun Moskva qarşısında qaldırdığı məsələlərdən ən mühümü Azərbaycan ərazilərinin zorla qoparılmasının qarşısının alınması ilə bağlı idi. B.Şahtaxtinski V.İ.Leninə və G.Çiçerinə yazdığı məktublarda mərkəzi hökumətin nəzərinə çatdırırdı ki, çevrilişdən əvvəl Azərbaycana məxsus olan ərazilər – Zaqatala dairəsi, Qarabağ, Naxçıvan diyarı – onun tərkibində qalmalıdır (17, s. 3-4).

Bu ərazilər Müsavat hökuməti vaxtında mübahisəsiz olaraq Azərbaycanın tərkibində idi, üzvi surətdə onun hissəsi olmuş və tarixi, etnoqrafik, iqtisadi, baxımlardan onunla sıx bağlı olmuşdur. Rusiya mənəvi və siyasi nöqteyi-nəzərdən bu torpaqları Azərbaycandan qoparmamalıdır.

Behbud ağa Şahtaxtinskinin diplomatik fəaliyyətində, məktub və teleqramlarında, danışıqlarında bolşeviklərin Şərq və Qafqaz siyasəti, Rusiya-Azərbaycan, Rusiya-Türkiyə münasibətləri, Azərbaycanın ərazi bütövlüyü, Naxçıvan məsələsi və başqa tarixi əhəmiyyətli məsələlər xüsusi yer tuturdu və bunları o, çox böyük cəsarətlə irəli sürürdü.

Azərbaycanda bolşevik hakimiyyətinin qurulduğu ilk günlərdən Rusiya hökuməti Azərbaycanla münasi-

bətləri və əlaqələri genişləndirməyə çalışırdı. Elə bu məqsədlə RSFSR Xalq Xarici İşlər komissarı G.Çiçerin N.Nərimanova müraciət etdi. Həmin müraciətdə daimi qarşılıqlı münasibətlərin qurulmasından ötrü Moskvaya səlahiyyətli nümayəndə göndərmək təklif edilirdi (16, s. 112). 1920-ci il iyulun 15-də B.Şahtaxtinski Azərbaycan SSR-in RSFSR-də fövqəladə və səlahiyyətli nümayəndəsi təyin edildi (2, s. 102) və ona Rusiya hökuməti ilə bütün məsələlərə dair danışıqlar aparmaq və müqavilələr imzalamaq səlahiyyəti verildi. B.Şahtaxtinski səlahiyyətli nümayəndə kimi fəaliyyətinin ilk günlərindən Azərbaycanın milli maraqları mövqeyindən çıxış edərək, Rusiya rəhbərləri qarşısında respublikanın suverenliyi və ərazi bütövlüyünün qorunması məsələsini ardıcıl və qəti şəkildə qoyurdu. O, Sovet Rusiyası ilə sıx ittifaqı bərabər hüquqlu iki dövlətin ittifaqı kimi görmək istəyirdi. 1920-ci il avqustun 5-də RK(b)P MK plenumu Azərbaycan SSR və RSFSR arasında qarşılıqlı münasibətlər haqqında məsələni müzakirə etdi. G.Çiçerinin sədrliyi ilə komissiya yaradıldı və bu komissiyaya müvafiq layihə hazırlamaq tapşırıldı (8, s. 65). B.Şahtaxtinski müqavilənin hazırlanmasında fəal iştirak edirdi. Müqavilənin layihəsi Azərbaycanda da müzakirə olundu. RSFSR ilə Azərbaycan SSR arasında bağlanacaq müqavilə layihəsinə İ.Stalin, Q.Orconikidze və A.Mikoyan müdaxilə edərək, onun beynəlxalq müqavilə səviyyəsində olmasına imkan vermədilər. 1920-ci il sentyabrın 29-da V.İ.Leninin sədrliyi ilə RK(b)P MK plenumu Azərbaycan SSR və RSFSR arasında bağlanacaq müqaviləni təsdiq etdi. Müqavilə 1920-ci il sentyabrın 30-da Moskvada G.Çiçerin

və B.Şahtaxtinski tərəfindən imzalandı. «Hərbi-iqtisadi ittifaq haqqında» və «Hərbi-dəniz məsələlərinə dair» müqavilələr və bundan əvvəl imzalanan xarici ticarətin, poçt, teleqraf və təchizat idarələrinin, ərzaq, iqtisadi, maliyyə siyasətinin birləşdirilməsinə dair müqavilələr (5, v. 100-104) əslində Mərkəzin Azərbaycana münasibətdə imperiya siyasətini pərdələmək vasitəsi oldu. Bir qədər sonra B.Şahtaxtinski bağladığı müqavilələrə qiymət verərək, onları «münasibətlərdə xaos və hərcmərclik yaradan» adlandırmışdı (6, v.187). B.Şahtaxtinski Moskva müqaviləsinə imza atarkən mürəkkəb vəziyyətdə mövcud şəraitin verdiyi imkanlardan bacarıqla istifadə edərək, mümkün olduqca ölkənin müəyyən qədər geniş hüquqlara malik olmasının bu sənəddə öz əksini tapmasına çalışmışdı (11, s. 3).

B.Şahtaxtinski diplomatik fəaliyyətində qəti mövqeyi, düşünülmüş incə siyasəti, prinsipial gedişləri ilə fərqlənirdi. Rusiyanın Ermənistana qarşı tutduğu mövqe, ikili siyasət aparması, Azərbaycan ərazilərini Azərbaycansız həll etməyə çalışması B.Şahtaxtinskinin irad və tənqidlərinə tuş gəlirdi. RSFSR 1920-ci il avqustun 10-da daşnak Ermənistanı ilə saziş imzalayır. Bu sazişdə tarixi Azərbaycan əraziləri olan Zəngəzur, Naxçıvan və Qarabağ bölgələri mübahisəli ərazilər kimi göstərilir və onların taleyi gələcəkdə Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında imzalanacaq yeni müqavilə ilə müəyyən olunmalı idi. Oktyabrın 28-də isə bağlanan başqa bir yeni müqavilə ilə həmin ərazilərin taleyi «həll olunurdu», Naxçıvan və Zəngəzur Ermənistana verilirdi. Lakin Ermənistanda Sovet hakimiyyəti yaranan-

dan bir neçə gün sonra–1920-ci il dekabrın 2-də Sovet Rusiyası ilə Sovet Ermənistanı arasında bağlanmış müqavilədə Naxçıvan Ermənistanın ərazisi kimi göstərilmirdi. Dekabrın 2-də Gümrüdə (Aleksandropolda) Türkiyə ilə daşnak Ermənistan hökuməti arasında bağlanmış sazişə əsasən Naxçıvan ərazisi Türkiyənin protektoratı altında qalırdı (10, s. 4).

Rusiyanın tutduğu bu mövqe B.Şahtaxtinskiyə çox yaxşı məlum idi və yeri gəldikcə o, öz sözünü Rusiya rəhbərlərinə çatdırırdı. 1920-ci il 10 avqust sazişi ilə əlaqədar B.Şahtaxtinski 13 avqustda G.Çiçerinə göndərdiyi teleqramda yazırdı: «Bu müqavilə ilə Ermənistanın daşnak hökuməti erməni xalqı arasında nüfuzunu daha da artırdı... Sovet Rusiyası xalqın tələbinin əksinə olaraq Naxçıvanı daşnaklara verir, halbuki bu, yerli müsəlmanların fiziki məhvi təhlükəsini yaradır, necə ki, daşnak Ermənistanında yüzlərlə müsəlman kəndləri dağıdılmışdı» (3, v. 14-15).

Türkiyə ilə daşnak Ermənistanı arasında bağlanmış Gümrü sülh müqaviləsinə münasibətdə də B.Şahtaxtinski aydın və şəffaf mövqe nümayiş etdirmişdi. Bu müqavilə ilə daşnak Ermənistanı məğlub olduğunu etiraf etməli olmuş, Naxçıvan, Şahtaxtı və Şərur ərazilərinə qarışmamaq, referendumla təyin olunacaq idarə formasınadək həmin ərazidə Türkiyənin himayəsinə yerli idarəçilik yaradılmasına razılıq vermişdi (10, s. 3-9).

Rusiya hökuməti bu müqaviləni tanımadığını bildirmiş və Azərbaycan hökumətindən də belə mövqe bildirməyi tələb etmişdi. Azərbaycan hökuməti də bu müqaviləni tanımadı. Çünki Gümrü müqaviləsindən

bir gün əvvəl Azərbaycan Hərbi İnqilab Komitəsinin bəyanatında Moskvanın təzyiqi ilə Naxçıvan və Zəngəzurun Ermənistana verildiyi elan edilmişdi (1, s. 58-59). B.Şahtaxtinski Azərbaycan bolşevik liderlərinə təlqin etməyə çalışırdı ki, Gümrü müqaviləsi tanınmalıdır. Həm də bildirirdi ki, türklərin mövqeyini müdafiə etməklə torpaqlarımızı xilas etmək mümkündür. Təsadüfi deyildir ki, B.Şahtaxtinskinin bu mövqeyi bir sıra türk diplomatları tərəfindən yüksək qiymətləndirilmiş və onu «Azərbaycanın xarici siyasətinin rəhbəri» adlandırmışlar.

Azərbaycan Hərbi İnqilab Komitəsinin məlum bəyanatına da B.Şahtaxtinski sərt münasibət bildirmişdi. Bu bəyanatdan çox ciddi narazı qalan naxçıvanlıları sakitləşdirmək üçün B.Şahtaxtinski Naxçıvana göndərilmişdi. Naxçıvana gələn B.Şahtaxtinski əhali ilə görüşlər keçirmiş, söhbətlər etmiş və onlara əsil həqiqəti çatdıraraq çıxış yolunu göstərmişdi: «Azərbaycan sizi torpağınızla birlikdə Ermənistana satıb, əgər mən Bakıda olsaydım, buna qəti surətdə razılıq verməzdim. Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada istinad edə biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunlar ətrafında sıx birləşməlidir» (14, v. 23-24).

B.Şahtaxtinskinin RSFSR Xalq Komissarlar Sovetinin sədri V.İ.Leninə yazdığı 13 avqust, 20 sentyabr, 7 oktyabr 1920-ci il və 1 mart 1921-ci il tarixli məktub və teleqramlarda, əlavə etdiyi arayışlarda bolşevik hakimiyyətinin Şərq siyasəti, bu zaman yol verilmiş səhvlər, Rusiya-Türkiyə münasibətlərinin qurulması və

bunun Rusiya üçün əhəmiyyəti, Azərbaycan-Rusiya münasibətləri, Azərbaycanın ərazi bütövlüyü problemi, Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması və ona müxtariyyət verilməsi, bir sıra ərazilərin coğrafiyası, milli tərkibi və başqa onlarla məsələləri çatdırmış, təklif və mülahizələrini bildirmişdir.

B.Şahtaxtinskinin diplomatik bacarığı və peşəkarlığı Naxçıvan diyarında referendum keçirilməsində, Moskva, Qars müqavilələrində və Naxçıvan məsələsində bir daha özünü açıqlığı ilə göstərmişdir. Rusiya ilə Türkiyə arasında münasibətlərin qurulması və inkişafında B.Şahtaxtinskinin müstəsna əməyi olmuşdur. O bildirirdi ki, bu ölkələr arasındakı münasibətlərin yaxşılaşması həm Rusiya və Türkiyə üçün, həm də Azərbaycan üçün, eləcədə bolşeviklərin Şərq siyasəti üçün əhəmiyyətlidir. Rusiya bununla imperialist ölkələrinin təcrid siyasətindən qurtula bilər. Türkiyə isə Sevr müqaviləsinin ağır şərtlərini aradan qaldıra bilər və itirilmiş torpaqlarını qaytara bilər. Həqiqətən də, B.Şahtaxtinskinin proqnozları özünü doğrultdu. Rusiya ilə Türkiyə 1921-ci il martın 16-da «Dostluq və qardaşlıq haqqında» Moskva müqaviləsini imzaladılar. Bu müqavilə ilə hər iki dövlət beynəlxalq aləmdə mövqelərini möhkəmləndirdi, Türkiyə həm də Şərqi Anadoluda və Qafqaz bölgəsində itirdiyi torpaqlarının əksəriyyətini – 23,6 min kv. km olan Qars, Kağızman, Ərdahan, Oltu, Artvin sancaqlarını bütünlüklə, Batum və Sürməli sancaqlarının da bir qismini geri qaytarmağa nail oldu (15, s. 15).

Naxçıvan məsələsi, onun obyektiv həlli, muxtariyyət statusu qazanması və Azərbaycanın tərkibində

qalması B.Şahtaxtinskinin ən böyük tarixi xidmətidir. Onun dövlət strukturlarında işləyərkən qətiyyətli mövqeyi, diplomatik fəaliyyətindəki peşəkarlığı Azərbaycanın ərazi bütövlüyünün qorunmasında çox mühüm rol oynadı. Təbii ki, burada Naxçıvanın özünəməxsus yeri vardır. B.Şahtaxtinski 1918-1920-ci illərdə Naxçıvanda Qaçqınlar Komitəsinin sədri və Sahibsiz Uşaqlar Evinin direktoru vəzifəsində işləyərkən qaçqınların yerləşdirilməsi, onlara kömək göstərilməsi istiqamətindəki işlərlə yanaşı, Naxçıvanın düşdüyü ağır vəziyyətdən çıxarılması və düşmən əlinə keçməməsi sahəsində də çox ardıcıl və fəal iş aparmışdır. 1921-ci ilin yanvarında Naxçıvana komissar kimi göndərilən B.Şahtaxtinskinin iştirakı ilə burada referendum keçirildi. Əhalinin 90 faizindən çoxu Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi. Məhz həmin referendumla Naxçıvan diyarının əhalisinin yekdil rəyi əsasında bu diyar Ermənistanın tabeliyinə verilməkdən xilas edildi və həmişəlik olaraq Azərbaycanın tərkibində qalmaq hüququ qazandı.

Naxçıvan məsələsində Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi, referendumun nəticələri, Moskva danışıqları ərəfəsində Nəriman Nərimanov və Behbud ağa Şahtaxtinskinin Türkiyə nümayəndələri ilə məsləhətləşmələri və seçdikləri xətt, şübhəsiz, Moskvanın Naxçıvan məsələsinə münasibətinin dəyişməsinə, nəticə etibarilə bölgəyə Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsinə təsir etmişdi. Burada B.Şahtaxtinskinin 1921-ci il martın 1-də V.İ.Leninə yazdığı məktubun və «Zaqafqaziya respublikaları arasında mübahisə obyekti

olan ərazilər haqqında» olan arayışın da böyük əhəmiyyəti olmuşdu. O, bu məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ, Zaqatala, Borçalı və b. ərazilərin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışı da əlavə etmiş, Cənubi Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər irəli sürmüşdü (17,v. 1-4). B.Şahtaxtinskinin təklifi Siyasi Büronun müzakirəsinə çıxarılmışdır. Siyasi Büronun qərarı ilə Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul olunmuşdu. Həmin gün, 1921-ci il martın 16-da Rusiya ilə Türkiyə arasında «Dostluq və qardaşlıq haqqında» müqavilə imzalandı. Bu müqavilənin 3-cü maddəsinə əsasən qarşılıqlı qərara gəlindi ki, «Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir» (7, v.143 arx.).

Behbud ağa Şahtaxtinskinin apardığı diplomatik danışıqlar nəticəsində Türkiyə Gümrü müqaviləsinin, o cümlədən də onun Naxçıvan bölgəsinə dair maddələrinin qüvvədən düşməsi ilə razılaşdı.

Türkiyə Cümhuriyyəti Cənubi Qafqaz respublikaları ilə də müqavilə bağlamaq, sərhəd məsələsini həll etmək istəyirdi. Bunun üçün 1921-ci il sentyabr ayının 26-dan oktyabrın 13-dək Qarsda konfrans keçirildi. Azərbaycan Xalq Fəhlə-Kəndli Müfəttişliyinin komissarı Behbud ağa Şahtaxtinski AK(b)P MK Siyasi Bürosunun 1921-ci il 26 avqust tarixli qərarı ilə Azərbaycanın konfransdakı

nümayəndəsi təsdiq edildi (4, v. 84). Lakin bir sıra qüvvələr B.Şahtaxtinskinin Qars konfransında iştirak etməsinin əleyhinə idilər. Belə ki, Rusiya Xalq Xarici İşlər komissari G.Çiçerin Naxçıvanın taleyinin həllində B.Şahtaxtinskinin oynadığı roldan narazı qaldığından onu Naxçıvan ilə Ermənistan arasında sərhədləri müəyyənləşdirən müzakirələrdən kənarlaşdırmaq istəyirdi. Sovet Ermənistanı da təbii ki, B.Şahtaxtinskinin məlum fəaliyyətindən narazı qalmışdı və onlar da B.Şahtaxtinskinin bu konfransda iştirakını istəmirdi. Bununla əlaqədar Ermənistanın Xalq Xarici İşlər komissarı A.Bekzadyan göndərdiyi bir teleqramda yazırdı: «...Çiçerin ilə birgə vacib hesab edirəm ki, Naxçıvan və Şərur-Dərələyəz məsələsinin müzakirəsi zamanı Şahtaxtinski Azərbaycan tərəfindən nümayəndə olmamalıdır».

Qeyd etməliyik ki, Azərbaycan rəhbərliyində olan ermənilər də Q.Orconikidze ilə birlikdə hələ 1921-ci ilin iyununda B.Şahtaxtinskini danışıqlardan uzaqlaşdırmağa və onu özləri üçün daha əlverişli adamla əvəz etməyə çalışırdılar. Lakin bunların niyyətləri baş tutmadı. B.Şahtaxtinski Qars danışıqlarında və müqavilənin bağlanılmasında çox fəal iştirak etmiş və tarixi xidmətlər göstərmişdir. Qars müqaviləsi Moskva müqaviləsinin müddəalarını əsasən təkrar edirdi. Müqavilədə yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması və ona muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdur. Lakin Moskva müqaviləsindən fərqli olaraq, Qars müqaviləsinin V maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdir. Bunlar

Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri idi (15, s. 17).

Beləliklə, Naxçıvan əhalisinin ardıcıl və ciddi mübarizəsi, Azərbaycan və Türkiyə diplomatlarının məqsədyönlü fəaliyyətləri, Behbud ağa Şahtaxtinskinin diplomatik gedişləri, müraciət və təklifləri sayəsində, beynəlxalq Moskva və Qars müqavilələri ilə Naxçıvan diyarı Azərbaycanın tərkibində muxtar ərazi kimi qəbul edildi. Bu müqavilələrlə Rusiya, Türkiyə, Gürcüstan, Azərbaycan və Ermənistan Naxçıvanı Azərbaycanın tərkibində muxtar qurum kimi tanımış və ona beynəlxalq hüquqi təminat vermişlər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvan diyarına Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsində Behbud ağa Şahtaxtinskinin və Qars müqaviləsinin əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: «Kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalıdırlar və tariximizə daxil olmalıdırlar. Qars müqaviləsinin altında Behbud ağa Şahtaxtinskinin imzası vardır».

**İsmayıl HACIYEV**
AMEA Naxçıvan Bölməsinin Sədri,
akademik

# ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 1, siy. 74, iş 124.
2. ARPİİSSA, f. 609, siy. 1, iş 21.
3. ARPİİSSA, f. 609, siy. 1, iş 71.
4. ARPİİSSA, f. 1, siy. 2, iş 16.
5. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 379, siy. 1, iş 2.
6. ARDA, f. 28, siy. 1, iş 97.
7. ARDA, f. 28, siy. 1, iş 58.
8. Azərbaycan tarixi. Yeddi cilddə. c. 6, Bakı, Elm, 2008, 568 s.
9. Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin Sərəncamı. "Şərq qapısı" qəzeti, 2011, 22 fevral.
10. Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, rus, türk və fransız dillərində). Naxçıvan; "Əcəmi", 2004, 139 s.
11. Həbibbəyli İ. Behbud ağa Şahtaxtinski: xidmətləri və aqibəti//NDU-nun Elmi əsərləri. Naxçıvan: "Qeyrət", 2011, № 1(37), s. 3-12.
12. İbrahimzadə F. Behbud ağa Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyəti. RDS NPM, Bakı, 2007, 232 s.
13. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı Universiteti nəşriyyatı, 1996, 328 s.
14. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA), f. 45, siy. 5, iş 15.
15. Qars müqaviləsi. Azərbaycan, rus, türk və fransız dillərində. Tərtib edəni və ön sözün müəllifi Hüsaməddin

Məmmədov (Qaramanlı). Bakı: AzataM, 2004, 84 s.
16. Qasımov M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyası münasibətlər). Bakı: Qanun, 1998, 360 s.
17. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi (RDSSTA), f. 5, siy. 1, iş 2796.

## BEHBUD AĞA ŞAHTAXTİNSKİNİN JURNALİSTLİK FƏALİYYƏTİ VƏ PUBLİSİSTİKASI

Xalqımız dövlət müstəqilliyimizin bərpasının 20-ci ildönümünü yüksək səviyyədə bayram etməyə hazırlaşır. Bu il eyni zamanda tarixi əhəmiyyətə malik olan Moskva və Qars müqavilələrinin 90 illiyi tamam olur. Bu mötəbər tarixi hadisələrin həyata keçirilməsində Azərbaycanın bir sıra dövlət xadimlərinin də böyük rolu olmuşdur. Dövlət müstəqilliyimizin tarixində böyük xidməti olan belə görkəmli şəxsiyyətlərdən biri Behbud ağa Şahtaxtinskidir.

Behbud ağa məşhur Şahtaxtinskilər nəslinin layiqli nümayəndələrindən biridir. Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Şahtaxtlı kəndindən çıxan bütöv bir nəslin Azərbaycanın ictimai-siyasi və mədəni həyatında mühüm xidmətləri olmuşdur. Bu nəslin xalqımızın şanlı tarixində hərbi sahədə, maarif, elm və mədəniyyət sahəsində böyük xidmət göstərmiş İsa sultan Şahtaxtinski, Əbülfət ağa Şahtaxtinski, Həmid ağa Şahtaxtinski, Məhəmməd ağa Şahtaxtlı, Həbib ağa Şahtaxtinski, Adilə Şahtaxtinskaya kimi görkəmli nümayəndələri olmuşdur. Anadan olmasının 130 illiyini qeyd etdiyimiz görkəmli dövlət xadimi Behbud ağa Şahtaxtinski də onlardan biridir.

Onu da qeyd edək ki, sovet dövründə Şahtaxtinskilərin fəaliyyətinə birtərəfli qiymət verilmiş, bəzən onların xidmətləri inkar olunmuş, xalqa unutdurulmuşdur. Bu haqsızlığın aradan qaldırılmasında, əsilzadələr

nəslinin xalqımızın tarixindəki xidmətlərinə layiqli qiymət verilməsində, Şahtaxtinskilərin gənclərə tanıdılmasında, bu şəxsiyyətlərin elmi və mədəni irsinin öyrənilməsində Naxçıvan Muxtar Respublika Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük əməyi vardır.

M.Şahtaxtlının anadan olmasının 160 illiyinin, B.Şahtaxtinskinin anadan olmasının 130 illiyinin qeyd edilməsi haqqında, Kəngərli rayonunun Şahtaxtı kəndində Şahtaxtinskilər muzeyinin yaradılması haqqında Ali Məclis Sədrinin imzaladığı sərəncamlar böyük ictimai-siyasi əhəmiyyətə malikdir (2).

Alovlu vətənpərvər, görkəmli dövlət xadimi B.Şahtaxtinskinin hələ 1904-cü ildə jurnalistlik fəaliyyəti ilə məşğul olduğunu yaxın qohumu M.Şahtaxtlının Tiflisdə nəşr etdirdiyi "Şərqi-Rus" qəzeti də təsdiq etməkdədir. Qəzetdə gedən elanlarda göstərilirdi ki, bu mətbuat orqanının Bakı şəhərindəki nümayəndəsi B.Şahtaxtinskidir. Qəzetə abunə yazılışı və digər məsələlərin həll edilməsi üçün B.Şahtaxtinski vəkil edilmişdir.

B.Şahtaxtinski mətbuat orqanlarının yaranmasına xüsusi diqqət yetirmiş, mətbuatı ictimai həyatda ən yaxşı təkanverici qüvvə kimi qiymətləndirmişdir. O bu barədə yazırdı: "Mətbuat ictimai həyatı canlandırır, ictimai rəy yaradır və onu tənzimləyir. Mətbuatın yaradıcı və tərbiyəvi əhəmiyyəti hamı tərəfindən etiraf edilib və bizdən başqa bütün ölkələrdə özünə layiqli yer tutub. Mətbuatın əhəmiyyəti bununla bitmir. O həm də xarici və bəzən daxili düşmənlərə qarşı mübarizə

vasitəsi kimi zəruridir. Əbəs yerə mədəni xalqlar tərəfindən mətbuat altıncı dünya dövləti adlandırılmayıb. Bizdə mətbuat orqanlarının olmaması elə şərait yaradıb ki, Avropanın və Amerikanın ictimai rəyi bizi bizsiz məhkum edib. Biz heç vaxt üstümüzə yağdırılan böhtanı təkzib etmək iqtidarında olmamışıq" (5).

Müəllif bu məsələdə daşnak ermənilərin hərəkətinə diqqəti yönəldərək hələ 1918-ci ildə göstərirdi ki, daşnak ermənilər mətbuat işinin düzgün qurulması nəticəsində yarım əsr içərisində 300 milyonluq müsəlman dünyasına qarşı işğalçı müharibə aparır və indi isə bu müharibəni mətbuat səhifəsinə çıxararaq müsəlmanları Avropanın gözü qarşısında hörmətdən salırlar.

Behbud ağa Şahtaxtinski 1912-1913-cü illərdə Bakıda İsabəy Aşurbəylinin mətbəəsində çap edilən «Baraban» adlı həftəlik yumoristik jurnalın redaktoru olmuşdur. 1912-ci ildə 6, 1913-cü ildə isə 40 sayı çap edilən «Baraban», satirik-yumoristik ruhlu jurnal olub, Bakıda «Molla Nəsrəddin» jurnalının funksiyalarını rus dilində həyata keçirən mətbu orqan idi. Jurnalda Azərbaycanda yaşayan rus ziyalılarının və rusdilli yerli müəlliflərin satirik üslublu bədii yazıları və məqalələri açıq, yaxud gizli imzalarla çap olunmuşdur. Ehtimal etmək olar ki, «Baraban» jurnalında adsız-imzasız getmiş yazıların əksəriyyəti Behbud ağa Şahtaxtinskiyə məxsusdur.

Beləliklə, «Baraban» Azərbaycanda rus dilində çıxan ilk satirik-yumoristik jurnal kimi də mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, bu jurnal Cəlil Məmmədquluzadənin və məşhur «Molla Nəsrəddin»

jurnalının, sadəcə ideyalarını rusdilli əhali arasında yaymaqla kifayətlənməmiş, o cümlədən öz səhifələrində açdığı «Poçt qutusu», «Atalar sözü» və sair kimi rubrikalarda verdiyi yazılarla mollanəsrəddinçi satirik mətbuat ənənələrinin daha da genişləndirilməsinə uğurla xidmət göstərmişdir. Məsələnin bu cəhəti Cəlil Məmmədquluzadə və Behbud ağa Şahtaxtinski münasibətlərinin, «Molla Nəsrəddin» ilə «Baraban» jurnalının əlaqələrinin araşdırılıb öyrənilməsi zərurətini də meydana çıxarır (3).

Məlumdur ki, B.Şahtaxtinski Azərbaycandakı müsəlman sosial-demokratların "Hümmət" təşkilatının ən fəal üzvlərindən və rəhbərlərindən biri olmuşdur. Hümmət təşkilatının mətbuat orqanı olan "Hümmət" qəzeti isə 1905-1906-cı illərdə fəaliyyət göstərmiş və 1907-ci ildə nəşri dayandırılmışdır. 1917-ci il martın 3-də "Hümmət" təşkilatı öz fəaliyyətini bərpa etdi. Bu zaman B.Şahtaxtinski də partiyanın mətbu orqanı olan "Hümmət" qəzeti redaksiyasının ən fəal əməkdaşlarından biri kimi fəaliyyət göstərmişdir. Bu qəzet səhifələrində siyasi mövzularda yazdığı məqalələrlə görkəmli publisist həmin dövrdə baş verən məsələləri fəhlə sinfinə çatdırmağa çalışırdı. Görkəmli dövlət xadimi Nəriman Nərimanovun xəstələnib Həştərxana getməsi ilə əlaqədar qəzetin redaktorluğu ona tapşırılmışdır. "Bütün cahan füqərayi- kasibəsi, birləşin"şüarı ilə çap edilən bu qəzetdə B.Şahtaxtinski xalqın siyasi-milli şüurunun, vətənpərvərlik hissinin inkişaf etdirilməsindən və xalqın özünü dərk etməsinin yollarından bəhs edərkən N.Nərimanovun "Bir millət özünü tanımayınca, hüququnu

düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır" proqramını öz fəaliyyətinin əsas istiqaməti kimi qəbul etmişdir.

B.Şahtaxtinski o dövrün rusdilli mətbuat orqanlarından olan "Nicat", "Zakafkazye", "Kaspi", "Azərbaycan" qəzetlərində də zamanın mühüm siyasi hadisələrini təhlil edən sanballı publisistik məqalələrlə çıxış etmiş və dövlətin, millətin və xalqın taleyi məsələləri ilə bağlı öz maraqlı mülahizələrini bildirmişdir.

Azərbaycanın, hətta Qafqazın rusdilli mətbuat orqanlarını diqqətlə öyrənməklə Behbud ağa Şahtaxtinskinin xeyli məqalələrini üzə çıxarmaq mümkündür.

Görkəmli dövlət xadimi B.Şahtaxtinskinin iştirak etdiyi ilk mətbuat orqanlarından biri olan "Nicat" qəzeti 1910-1912-ci illərdə maarif xeyriyyə cəmiyyətinin orqanı olaraq fəaliyyət göstərmişdir.

Görkəmli jurnalistin bu qəzetdə nəşr etdirdiyi "Gənc türklərin siyasətinə dair", "Panislamizm", "Qan intiqamı" kimi məqalələrindən aydın olur ki, XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi şərait mühüm proseslər və hadisələrlə zəngin olmuş və burada bir sıra cərəyan və hərəkatların yaranması gərgin ideya-məfkurə mübarizəsi dövrünü yaşamışdır. "Gənc türklərin siyasətinə dair" məqaləsində Osmanlı Türkiyəsində gənc türklərin hakimiyyət illərindən bəhs edən B.Şahtaxtinski yazırdı ki, bu dövr daha mükəmməl bir təcrübə dövrü idi, bu dövrdə dövlət idarəçiliyinin bir çox sahələrində ilk addımlar atılmağa başlanmışdı və Türkiyənin sonrakı ictimai-siyasi həyatı üçün yetkin

bir məktəb rolunu oynamışdı. Bu mərhələdə meydana çıxan yeni fikir və təcrübələr cümhuriyyət dövrü inqilablarının təməlini təşkil etmişdi (4,s.45).

"Zakavkazye"(1906-1914) qəzetində görkəmli dövlət xadiminin çap etdirdiyi siyasi-publisistik məqalələr şərq xalqlarının azadlıq mübarizəsi ilə yaxından səsləşir. Bu baxımdan publisistin həmin qəzetdə çap etdirdiyi "Yaxın şərqdə baş verən hadisələrin vəziyyətinə dair", "Müsəlmanlara qarşı yürüş" kimi sanballı, milli mənafeyə xidmət edən məqalələri diqqəti cəlb edir. O,"Müsəlmanlara qarşı yürüş" məqaləsində çarizm çinovniklərinə, rus şovinistlərinə tövsiyə edirdi ki, ruslaşdırma siyasətinin təbliğinə deyil, böyük rus xalqı ilə dünya xalqlarının, o cümlədən müsəlman, şərq xalqlarının əbədi dostluğuna çalışmaq lazımdır (6).

Eyni zamanda, Behbud ağa Şahtaxtinskinin Azərbaycanın rusdilli digər mətbuat orqanları ilə əlaqələrə malik olduğu da məlumdur. Bunlardan biri "Kaspi" qəzetidir(1871-1919).Onun «Kaspi» qəzetində bir çox və əhəmiyyətli məqalələri çap olunmuşdur. Onu da qeyd edək ki, 1917-ci il bolşevik inqilabı ərəfəsində B.Şahtaxtinskinin"Kaspi"də və "Bakı müsəlman ictimai təşkilatının xəbərləri"ndə publisistik fəaliyyəti daha geniş olmuşdur. Bu məqalələr həm Azərbaycan və Rusiya daxilində gedən ictimai-siyasi proseslərə, həm də beynəlxalq məsələlərə həsr olunmuşdu. Bu qəzet səhifələrində işıq üzü görmüş "Müsəlman həqiqətləri", "Müsəlman zəhmətkeş kütlələrinin təşkilinə dair","Son günlərin hadisələrinə dair"(5 may, 1917), "Son həftələrin hadisələrinə dair" adlı siyasi məqalələrində Azərbaycanın

zəhmətkeş xalqının siyasi cəhətdən maarifləndirilməsi, qarşıdakı inqilabi hərəkata səfərbər edilməsi məsələləri ön planda verilmişdir. Bu fikirləri B.Şahtaxtinski "Müsəlman həqiqətlərinin anatomiyası" adlı məqaləsində daha da inkişaf etdirərək yazırdı ki, Rusiya, İngiltərə, Fransa kimi dövlətlərin timsalında müsəlman xalqlarına qarşı təkcə Rusiyada deyil, Asiyanın bütün bölgələrində yeridilən, onların həyatını cəhənnəmə çevirən müstəmləkə, imperiya siyasəti ifşa edilməli və Rusiya müsəlmanlarının mütləqiyyət quruluşuna nifrəti təbii sayılmalıdır (7).

Qadın azadlığı mövzusu B.Şahtaxtinski publisistikasında mühüm yer tuturdu. "Kaspi" qəzetində çap etdirdiyi "Müsəlman qadınların seçkilərdə iştirakına dair" adlı başqa bir məqaləsində B.Şahtaxtinski müsəlman qadınların seçki hüquqlarını müdafiə edərək onların seçkilərdə iştirakı haqqında meydana çıxan mübahisə və müzakirələrə öz münasibətini bildirmişdi. Həmin qəzetdə çap olunmuş başqa bir məqaləsində isə "yaxşı gələcək uğrunda mübarizədə biz heç bir zaman mövhumatçıların dedi-qodularına fikir verməməliyik" deyə səslənən müəllif qeyd edirdi ki, uşaqların həqiqi tərbiyəçisi yalnız ətraf həyatın şəraiti barədə kifayət qədər məlumata malik savadlı ana ola bilər. Bu fikir bizim üçün yolgöstərən ulduz olmalıdır. Yalnız müsəlman qadınının azad edilməsi ilə geridə qalmış müsəlmanların sivilizasiyası və tərəqqisinin böyük bünövrəsini qoymaq olar (8).

Bu deyilənlərdən əlavə, Behbud ağa Şahtaxtinskinin Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbu orqanı

olan «Azərbaycan» qəzeti ilə də əməkdaşlıq etməsi, bu qəzetin Şəfibəy Rüstəmbəyovla Ceyhun bəy Hacıbəyov tərəfindən nəşr edilmiş eyniadlı rusca əlavəsində məqalələrini çap etdirməsi faktı da onun hərtərəfli, yetkin bir siyasi xadim olduğunu göstərir. Onun bu qəzetdə çap olunmuş «Həyatın əks-sədaları» adlı məqaləsində təhsil, elm və mədəniyyətin millətin və xalqın çətin dövrlərində nə qədər vacib olduğu qeyd edilir. Bu məqalə dərin siyasi təhlil imkanlarına və praqmatik xarakterinə görə ictimai mühitdə müəyyən əks-səda doğurmuşdu.

Araşdırmalardan aydın olur ki, Behbud ağa Şahtaxtinski Bakıda və Naxçıvandakı Azərbaycan mətbuatında da təmsil olunmuşdur. Onun 1920-1921-ci illərdə Bakıda çıxan «Kommunist», Naxçıvanda çap edilən «Şərq qapısı» və sair qəzetlərdəki məqalələrinə müəyyən istinadlar edilmişdir. Bu məqalələrin qısa təhlilindən də aydın olur ki, Behbud ağa Şahtaxtinskinin publisistikası onun geniş siyasi dünyagörüşünün, analitik təfəkkürünün və zəngin həyat təcrübəsinin üzvi sintezindən yaranmışdır. Bu məqalələr Azərbaycan siyasi publisistikasının orijinal və dəyərli nümunələri sayılmağa layiqdir.

Məqaləni ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının 75 illiyi münasibətilə təşkil olunmuş Dövlət Komissiyasının 9 fevral 1999-cu ildə keçirilən iclasında söylədiyi nitqindən alınmış aşağıdakı cümlələrlə bitirmək istəyirəm: "Hansı partiyaya, hansı siyasi qüvvəyə mənsubiyyətindən asılı olmayaraq kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa,

ona xidmət göstəribsə, o insanlar həmişə hörmətlə yada salınmalı və tariximizə daxil olmalıdırlar. Qars müqaviləsinin altında Behbud ağa Şahtaxtinskinin imzası vardır"(1,s.152-153).

**Əbülfəz QULİYEV**
AMEA Naxçıvan Bölməsi İncəsənət,
Dil və Ədəbiyyat İnstitutunun direktoru,
AMEA-nın müxbir üzvü

## *ƏDƏBİYYAT*

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir.19-cu kitab, Bakı: Azərnəşr, 2006, 528 s.
2. Bax: "Şərq qapısı" qəzeti, 28.02.2006; 10.02.2010; 22.02.2011.
3. Həbibbəyli İ. Behbud ağa Şahtaxtinskinin xidmətləri və aqibəti. "Azərbaycan" qəzeti,18-19 mart 2011
4. İbrahimzadə F. Behbud ağa Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyəti. Bakı, 2007, 220 s.
5. "Azərbaycan" qəzeti (rusca). 31.X.1918, NO:23
6. Zakavkazye,17.IV.1908, NO:85
7. Kaspiy, 25.V.1917, NO:113
8. Kaspiy, 27.V.1917, NO:107

## QARS MÜQAVİLƏSİ VƏ NAXÇIVANIN MUXTARİYYƏT STATUSU

Naxçıvanın ərazi taleyinin müəyyənləşdirilməsi və muxtariyyət statusunun Qars müqaviləsinə əsasən əldə etməsi tarixi həqiqətdir. Bunu da xüsusilə qeyd etmək lazımdır ki, Qars müqaviləsinə gedən yol 1921-ci ilin əvvəlində Naxçıvanda keçirilən referendumdan başlanır. Həmin referendum Azərbaycan İnqilab Komitəsinin 1 dekabr və Ermənistan İnqilab Komitəsinin 26-28 dekabr 1920-ci il tarixli bəyannamələrinə əsasən Naxçıvanın Sovet Ermənistanına verilməsi məsələsi qarşısında Azərbaycanın görkəmli dövlət xadimi, mahir diplomat Behbud ağa Şahtaxtinskinin apardığı qətiyyətli fəaliyyət nəticəsində baş tutmuş və məhz həmin referendumda Naxçıvan əhalisinin yekdil rəyi əsasında bu diyar Ermənistanın tabeliyinə verilməkdən xilas edilmiş, həmişəlik olaraq Azərbaycanın tərkibində qalmaq hüququ qazanmışdır. Bu referendum özünün hərbi-siyasi əhəmiyyətinə görə Qars müqaviləsinin müddəalarına bərabər əhəmiyyətə malik siyasi hadisədir. Əgər Naxçıvanın ərazi taleyinə dair 1921-ci ilin yanvar referendumu keçirilməsəydi, bəlkə də, Moskva və Qars müqavilələrinə heç ehtiyac da qalmayacaqdı. Bu, Azərbaycan diplomatiyası tarixində Behbud ağa Şahtaxtinskinin adı ilə bağlı olan, Mərkəzi hökumətlə razılaşdırılmamış nadir və uğurlu diplomatik gedişdir (bu barədə ətraflı bax: 2; 10). Şübhəsiz ki, 1 dekabr

və 26-28 dekabr 1920-ci il tarixli bəyannamələrin arxasında sırf Mərkəz dayanmışdı. Buradakı əsas məqamlara diqqət çəkmək lazımdır.

Əvvəla, Ermənistan Sovet Sosialist Respublikasının ilkin addımı kimi 29 noyabr 1920-ci ildə İnqilab Komitəsi qurulmuşdu və Sovet Rusiya hökuməti Ermənistanın sovetləşməsini bir an öncə istəyirdi. Hakimiyyət isə daşnak hökumətinin əlində idi və uzun illərdi ki, müharibə yolu ilə Naxçıvan diyarını əldə edə bilmirdi. Lakin Ermənistanın sovetləşər-sovetləşməz bəyannamələr qəbul etməsi ilə Rusiya ermənilərə onu göstərmək istəyirdi ki, daşnakların illərdən bəri güc yolu ilə ala bilmədiyi Naxçıvan sadəcə bir söz ilə Sovet Ermənistanına verilirdi. Beləliklə, müharibə yolu ilə alına bilməyən ərazilər qələmlə hədiyyə edilərək daşnak hökuməti gözdən düşürüləcək, əhalinin sovet idarəsinə alışması və onun nüfuzu təmin ediləcək, ermənilərin torpaq iddiaları təmin olunacaq və digər milli hədəflərinin də reallaşması üçün Sovet Rusiyasına ümid gözü ilə baxılacaqdı (3; 4, s. 407). Göründüyü kimi, Rusiya bu yolla öz gələcək perspektivlərini müəyyənləşdirirdi. Lakin mövcud mürəkkəb şəraitdə Mərkəzin bu planını pozan da məhz Behbud ağa Şahtaxtinski oldu. Bu, kommunist olmasına baxmayaraq Behbud ağa Şahtaxtinskinin eyni zamanda əsl milli siyasətçi və diplomat olmasının da bariz nümunəsidir. Belə bir siyasət, düşünülmüş diplomatiya ilə bütün Türk Dünyasını bir-birinə bağlayan, əlaqələri təmin edən bir körpü kimi Naxçıvanın "türk qapısı" olaraq milli dövlətçilik

mövcudiyyətinin qorunub saxlanılması məhz onun sayəsində mümkün olmuşdur.

Behbud ağa Şahtaxtinski Rusiya XKS-nin sədri V.İ.Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, həmin mahalların milli tərkibi və coğrafiyasına dair geniş arayışlar və Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermiş, nəticədə bu təkliflər bəyənilərək RK(b)P MK Siyasi Bürosunda müzakirə olunmuş və Azərbaycan SSR tərkibində Naxçıvan SSR-nin təşkil edilməsi haqqında qərar qəbul edilmişdir (8).

Naxçıvan məsələsi Türkiyə və Rusiya arasında keçirilən görüşlərdə də qızğın müzakirə predmeti olmuşdur. Türk dünyasına açılan qapı kimi Naxçıvanın Ermənistana qarşı strateji üstünlük təşkil etməsi, əhalisinin tamamilə türk olması Naxçıvanın Türkiyə baxımından əhəmiyyətini artıran əsas səbəblərdəndir. Türk heyəti 2 dekabr 1920-ci il tarixli Gümrü anlaşmasının qüvvədə olduğunu müdafiə edərkən, rus nümayəndələri bu anlaşmanı, dolayısı ilə Türkiyənin Naxçıvan üzərində himayə haqqı olduğunu qəbul etmirdilər. 9 mart tarixli görüşlərdə Naxçıvanın muxtar statusa sahib olması və başqa bir dövlətə verilməməsi şərti ilə himayəsinin Azərbaycana verilməsi qərarlaşdırılmış, digər məsələləri də özündə ehtiva edən Moskva müqaviləsi 16 mart 1921-ci ildə imzalanmışdı. Çox mühüm bir faktı da nəzərə almaq lazımdır ki, müqavilə əslində 18 mart tarixində imzalanmışdı. Lakin ingilislərlə imzaladıqları ticarət

anlaşmasından dolayı rusların da mənafeyinə uyğun olduğu üçün müqavilənin altına İstanbulun işğal ildönümü olan 16 mart tarixi qoyulmuşdu (4, s. 441).

Türkiyə nümayəndə heyəti Naxçıvanı Türkiyənin himayəsinə ala bilməmişdisə də, regionun Azərbaycan türklərinin əlində qalması təmin edilmiş və Naxçıvan əhalisi bir daha soyqırımına uğrayacağı halda türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdi (13, s. 225-226).

Beləliklə, Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında imzalanmış 16 maddə və 2 əlavədən ibarət Moskva müqaviləsində təsbit edildi. Bu müqavilə eyni zamanda Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri də həll etdi. Rusiya və Türkiyə sıx ittifaqda birləşdi, təbii müttəfiqə çevrildilər.

Naxçıvanın statusunun bu müqavilədə əks olunması o dövrdə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi dəyərləndirilməlidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də qeyd etdiyi kimi, əgər Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının, yəni Zəngəzur mahalının vaxtilə Ermənistana verilməsi olmasaydı, bəlkə də, heç Naxçıvanın muxtariyyəti də lazım deyildi. Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi (11, s. 114).

Moskva müqaviləsinin maddə və şərtlərini daha da konkretləşdirmək və müəyyən mənada tamamlamaq, bununla həm də onu reallaşdırmaq, yəni Türkiyə ilə Cənubi Qafqaz Respublikaları arasındakı həll

olunmamış məsələləri, xüsusilə də ərazi problemlərini nizama salmaq məqsədilə yeni konfrans çağırmaq lazım gəldi.

Moskva müqaviləsi ilə şərq sərhədlərini müəyyənləşdirən Türkiyə Qarsda da Cənubi Qafqaz Respublikalarının hər biri ilə ayrı-ayrılıqda müqavilələr imzalamaq istəsə də, Behbud ağa Şahtaxtinskinin "vahid müqavilə bağlanmasının Cənubi Qafqaz Respublikaları və Türkiyə üçün qarşılıqlı surətdə faydalı olduğu, inqilabi zərurətin bunu tələb etdiyi" təklifindən sonra 13 oktyabr 1921-ci il tarixdə ümumi müqavilə imzalandı (11, s. 119). 20 maddə və 3 əlavədən ibarət olan bu müqavilənin bir sıra müddəaları Moskva müqaviləsinin müvafiq maddələri ilə uyğun idi. Ümumilikdə isə bu sənəddə qeyri-bərabər hüquqi, zorla qəbul etdirilən müqavilələr, əsas olaraq da Sevr müqaviləsi rədd edilirdi (1, s. 313).

18 gün davam edən, çox gərgin və prinsipial şəraitdə keçən Qars konfransında müqavilənin 5-ci maddəsi və 3-cü əlavəsinə əsasən Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusu təsbit edildi və bu status məsələsində razılığa gələn tərəflər – Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri müəyyən olundu.

Qeyd olunan maddədə yazılırdı: *"Türkiyə hökuməti, Sovet Ermənistanı və Azərbaycan hökumətləri razıdırlar ki, indiki müqavilənin 3-cü əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil*

*edir"* (11, s. 120-121).

Müqaviləyə görə Naxçıvan ərazisinin Türkiyə ilə sərhədi Arazdəyən stansiyasına qədər 11 km. uzunluğunda müəyyən edilmiş, İranla sərhədi isə 176 km. uzunluğunda, yəni 1828-ci il Türkmənçay anlaşmasında müəyyən olunduğu kimi dəyişilmədən saxlanılmışdır (4, s. 1; 11, s. 121).

Müqavilənin əsas məzmunu tərəflərin bir-birilərinin suverenliklərini, ərazi toxunulmazlığını tanımaqdan, hər hansı mübahisəli məsələlərin ancaq dinc yolla həll edilməsi üçün bütün imkanlardan istifadə edilməsindən ibarətdir.

Türkiyə dövlətinin köməyi və mahir diplomat Behbud ağa Şahtaxtinskinin siyasi gedişləri nəticəsində Moskva və Qars kimi beynəlxalq müqavilələrlə Naxçıvanın taleyi həll olunmuş və gələcək siyasi-hüquqi statusu müəyyənləşdirilmişdir. Behbud ağa Şahtaxtinskinin bununla bağlı bəyanatında deyilirdi ki, Naxçıvan vilayəti "Muxtar Xalq Sovetləri Respublikaları" sırasına daxil edilir, eyni zamanda Azərbaycanın himayəsi altına keçir; gənc respublikanın özünün XKS, Azərbaycanın isə yeni dövlətdə nümayəndəsi olacaqdır (11, s. 122).

Qars müqaviləsi müddətsiz imzalanmışdır və bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Müqavilə 1922-ci ilin mart-iyun aylarında onu imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilmiş və həmin ilin 11 sentyabrında qüvvəyə minmişdir. Qeyd etmək lazımdır ki, Türkiyə Cümhuriyyətinə aid olan

İqdır vilayətinin Aralıq-Dilucu məntəqəsi ilə Naxçıvanın Sədərək kəndi arasından keçən Araz çayı vasitəsilə sərhəd təşkil edən həmin 11 km-lik məsafə mühüm strateji əhəmiyyətə malik olduğu üçün XX əsrin əvvəllərində istiqlal savaşı dövründə Mustafa Kamal Paşa tərəfindən qızıl pul ödənməklə alınmışdır (9, s. 41). Bu fakt Atatürkün Azərbaycana və onun ayrılmaz parçası olan Naxçıvana bütövlükdə Türk birliyinə münasibətini parlaq şəkildə ifadə edir.

Qars müqaviləsində muxtariyyətin əsası qoyulmuş, Naxçıvan ərazisində Naxçıvan SSR yaradılmış, lakin 16 iyun 1923-cü ildə siyasi və inzibati statusunda dəyişiklik edilən Naxçıvan SSR Naxçıvan diyarına çevrilmişdir. 1924-cü il fevralın 9-da bölgənin inzibati və siyasi statusu bərpa edilərək Naxçıvan MSSR, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır (8).

Müqavilənin əsas tarixi əhəmiyyəti kimi bunu da xüsusilə qeyd etməyi vacib bilirik ki, tarix boyu həsrətində olan Ermənistan bu müqavilə ilə Naxçıvanı qeyd-şərtsiz Azərbaycan torpağı kimi qəbul etmişdir. Beləliklə, illərdən bəri Naxçıvanı ələ keçirmək xüsusunda hər tərəfi qan gölünə çevirən və "Naxçıvansız, Şərursuz Ermənistan mövcud ola bilməz" ideyasından çıxış edən erməni ekspansionizminin önünə sədd çəkilmişdir (4, s. 446).

Bu müqavilənin əhəmiyyətindən danışarkən ümummilli liderimiz Heydər Əliyev deyirdi: "...*Sovetlər İttifaqı dağılan zaman və Naxçıvana qarşı xəyanətkar əllər uzanan zaman biz bu*

*müqavilələrin Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu dərk edə bildik"* (11, s. 124).

Bir vaxtlar Mustafa Kamal Paşa Atatürk, Behbud Ağa Şahtaxtinski kimi böyük siyasi xadimlərin sayəsində mövcudiyyətini qoruyan "türk qapısı" Naxçıvan Sovetlər İttifaqının dağılmasından sonra bu dəfə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi uzaqgörənliyi nəticəsində varlığını mühafizə etdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrlərdə ümummilli liderimizin 1992-ci ilin mart ayında Türkiyəyə səfəri zamanı Qars müqaviləsinə yenidən baxılmış, 1921-ci ildə Rusiya ilə bağlanmış və heç kim tərəfindən ləğv edilməyən Moskva və Qars müqavilələrinə əsasən *"Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır"* fikri bir daha vurğulanmışdır (7, s. 54).

Ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründə Naxçıvanın muxtariyyət statusu daim onun diqqət mərkəzində olmuş, hazırda da möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən bu siyasət davam etdirilir. Məhz həmin siyasətin nəticəsidir ki, bir vaxtlar Qars müqaviləsinə əsasən ərazi taleyi həll edilən Naxçıvan Muxtar Respublikasının artıq günümüzdə bütövlükdə ölkəmizin xarici siyasəti kontekstində xarici əlaqələri və diplomatiyası xeyli inkişaf etməkdədir.

Son illərdə xarici ölkələrin Bakıdakı diplomatik nümayəndələrinin və bir çox beynəlxalq təşkilatların rəhbərlərinin, xarici şirkət nümayəndələrinin Naxçıvana mütəmadi səfərləri muxtar respublikanın

strateji əhəmiyyətinin göstəricisinə çevrilmişdir. İranın, Türkiyənin dövlət və hökumət başçılarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə görüşlərinin, eyni zamanda 2009-cu ilin oktyabr ayında türkdilli dövlətlərin IX Zirvə toplantısının məhz Naxçıvanda keçirilməsi muxtar respublikanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə böyük töhfə olmuşdur (12, s. 19).

Sammitin təşkili üçün Naxçıvanın seçilməsi xüsusi əhəmiyyət daşıyan məqamlardan biridir və bu, sammitin keçirildiyi qədim torpağın türk sivilizasiyasına məxsusluğunu təsdiqləyib.

Naxçıvan Muxtar Respublikası Ali Məclsinin Sədri hörmətli Vasif Talıbovun dəfələrlə xarici ölkələrə, o cümlədən Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına rəsmi səfərləri Azərbaycan Respublikasının xarici siyasətinin tərkib hissəsi kimi artıq Naxçıvan diplomatiyasının da formalaşdığını sübut etməkdədir. Xüsusilə 2010-cu ilin aprel ayında Türkiyə Cümhuriyyətinə gerçəkləşən rəsmi səfər həm muxtariyyətimizin müasir dövrdə diplomatik yollarla möhkəmləndirilməsinə, həm də Naxçıvanın sözün əsl mənasında türk qapısı kimi əhəmiyyətinin bir daha qabardılmasına xidmət edir (5).

Muxtar Respublika Ali vəzifəli şəxsinin siyasi-hüquqi fəaliyyətinin ən böyük uğurlarından biri kimi muxtar respublikamıza və onun Konstitusiyasına "Qanun vasitəsilə Demokratiya uğrunda Avropa Komissiyasının, Venesiya Komissiyası"nın verdiyi rəy xüsusilə qeyd edilməlidir. Rəydə deyilir: *"Naxçıvan*

*MR digər Avropa muxtariyyətləri arasında geniş muxtariyyətə malikdir. Naxçıvan MR-in Konstitusiyası bütövlükdə muxtariyyətin idarə edilməsi qaydalarını şərtləndirən normal əsaslar yaradır və qitənin digər muxtariyyətlərinin səlahiyyətlərinin və əsaslarının müəyyənləşdirilməsində model kimi çıxış edə bilər"* (6, s. 210).

Bütün bu diplomatik fəaliyyət qədim diyarımıza qarşı əsassız iddiaların hələ də aktuallığını davam etdirdiyi müasir şəraitdə Naxçıvanın muxtariyyət statusunun və onun Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmasına xidmət etməklə bərabər Naxçıvan Muxtar Respublikasının beynəlxalq mövqeyinin və siyasi-iqtisadi potensialının gücləndirilməsinə səbəb olan uğurlu, çoxşaxəli siyasətin nəticəsidir.

Son olaraq onu qeyd edək ki, son illərdə Ermənistan Qars müqaviləsinin ləğvini tələb etsə də, onların Naxçıvana qarşı ərazi iddialarının sadəcə bir iddiadan ibarət olduğu müşahidə edilə bilər. Hər şeydən əvvəl ona görə ki, ermənilərin Qars müqaviləsinin ləğvi ilə bağlı tələbləri əslində Azərbaycana və Türkiyəyə deyil, sırf Ermənistanın özünə zərərdir. Hərçənd ki, bu müqavilənin birtərəfli qaydada ləğvi mümkün deyil, ancaq deyək ki, ləğv edildi. O zaman Gümrü müqaviləsi mexaniki olaraq qüvvəyə minəcək və Ermənistan öz ərazisinin təqribən 20 min kv km-lik hissəsini Azərbaycana, Türkiyəyə və Gürcüstana qaytarmaq məcburiyyətində qalacaq. Bütün bunlar onu göstərir ki, Ermənistanın edə biləcəyi heç bir

şey yoxdur və hər tərəfdən sıxışdırılmış vəziyyətdədir. Bu, istər o dövrdə, istərsə də günümüzdə Behbud ağa Şahtaxtinski kimi dahi şəxslərin uzaqgörən siyasətlərinin parlaq nəticəsidir.

**Emin ŞIXƏLİYEV**
AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru

## ƏDƏBİYYAT

1. Armaoğlu Fahir. 20. yüzyıl siyasi tarihi (1914-1990): 2 cilt-də, II c., Ankara: Türkiye İş Bankası Kültür yayınları, 883 s.
2. ATASE, A. 6 / 6686. Kls. 924. D. 6-1, F. 24-18
3. ATASE, A.6/6686, Kls. 924, D. 6-1, F. 25-5
4. Atnur İbrahim Ethem. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921). Ankara: Türk Tarih Kurumu, 2001, 520 s.
5. Azərbaycan-Türkiyə bir millət, iki müstəqil dövlətdirlər. http://pda.azertag.com/news.jsp?id=6624&lang=az&date=2011-0223&partition=8
6. Cəfərli Elman. Naxçıvanda dövlət quruculuğu prinsipləri və idarəetmə modeli // NDU-nun Elmi Əsərləri, №1 (29), 2010, s. 208-211
7. Hacıyev İsmayıl. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı: Elm, 2003, 162 s.
8. Hacıyev İsmayıl. Qars müqaviləsi: Naxçıvanın ərazi taleyi və muxtariyyət məsələsi. "Şərq qapısı" qəzeti, Naxçıvan, 2011, 27 sentyabr
9. Həbibbəyli İsa. Mustafa Kamal Atatürkün Naxçıvanın istiqlalı uğrunda mübarizəsi // Naxçıvan jurnalı, № 2,

2000, s. 38-43
10. Həbibbəyli İsa. Behbudağa Şahtaxtinskinin xidmətləri və aqibəti. "Azərbaycan" qəz., Bakı, 2011, 18-19 mart
11. İbrahimzadə Füzuli. Behbud Ağa Şahtaxtinskinin siyasi və diplomatik fəaliyyəti. Bakı: RDS-Nəşriyyat-Poliqrafiya müəssisəsi, 2007, 222 s.
12. Nazimoğlu Natiq. "Naxçıvan mərhələsi" // Region plus. Analitik baxış, 2009, № 20 (88), s. 18-21
13. Tengirşek Yusuf Kemal. Vatan hizmetinde. Ankara: "Bahar" matbaası, 1977, 386 s.

# BEHBUD AĞA ŞAHTAXTİNSKİ HAQQINDA YENİ ARAŞDIRMALAR

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında" 2011-ci il 21 fevral tarixli Sərəncamı dövlətçilik tariximizdə xüsusi yeri və böyük xidmətləri olan Şahtaxtinskilərə göstərilən qayğının bariz nümunəsidir. Həm də bu ilin oktyabr ayında beynəlxalq Qars müqaviləsinin 90 illiyi tamam olur. Beynəlxalq Qars müqaviləsinin imzalanmasında, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana muxtariyyət statusunun verilməsində Behbud ağa Şahtaxtinskinin çox böyük rolu olmuşdur.

Behbud ağa Şahtaxtinskinin həyatı və fəaliyyəti haqqında hələ Sovet hakimiyyəti illərində məqalələr yazılmış və adı zahirən təqdir edilmişdir. Amma diqqətlə baxanda onun haqqında tədqiqat dərindən aparılmamışdır. Hətta o illərdə çap edilən akademik nəşrlərdə tərcümeyi-halı yazılarkən Qars müqaviləsinin adı belə xatırlanmamışdır (1, s. 479).

Bizcə, belə bir bacarıqlı diplomatın həyatının bütün mərhələləri haqqında gənc nəsillərin bilməsi vacibdir. Yəni o, harada doğulub, valideynləri kim olub, necə təhsil alıb, birinci rus inqilabından əvvəl, eləcə də Birinci Dünya müharibəsində harada olub, hansı yolla Rusiyaya gedib, nə üçün həbs edilib və s. belə suallar maraq doğurur. Çünki bu mətin diplomatın həyatının çox az mərhələləri tədqiqat əsərlərinə cəlb edilmişdir.

Behbud ağanın mənsub olduğu Şahtaxtinskilər və onların nəsil şəcərəsi üzərində axtarışlarımızı və işimizi davam etdirdiyimizdən xeyli yeni arxiv sənədləri və fotoşəkillər də əldə etmişik. Qeyd edək ki, Behbud ağanın atası Əli ağa I İsa Sultanın oğul nəvəsidir. Əli ağanın atası Məmmədqulu Sultan öz dövrünün hərbçilərindən olmuşdur. O da öz doğmaları kimi, Şahtaxtıya qayıtmış və burada həmyerliləri ilə birlikdə ömür sürmüşdür.

Rusiya imperiyası Azərbaycanın şimalında yerləşən müstəqil xanlıqları və sultanlıqları işğal etdikdən sonra xanlıqlara məxsus idarə sistemlərini ləğv etdi. Çar hökuməti özünün müstəmləkəçilik siyasətinə uyğun idarə sistemlərini yaratmağa başladı. Əvvəlcə əhalinin siyahıya alınması üçün "Kameral təsvirlər" tətbiq etməyə başladılar. Bu "Kameral təsvirlər"i yazmaq, tərtib etmək üçün hərbi, elmi ekspedisiyalar yaradıldı.

Əslində "Kameral təsvirlər" ümumilikdə Rusiya imperiyası üzrə aparılan təftişlərin yekunları idi. Belə təftişlər Zaqafqaziya ərazisində 1803-1805, 1816-1817, 1830-1832, 1840-1842, 1859-1863, 1873-1874 və 1885-1886-cı illərdə aparılmışdır. Biz tarixi nəsillərin şəcərələrini hazırlayarkən, əsasən Naxçıvan, Bakı, Tiflis, Moskva, Sankt-Peterburq arxivlərində saxlanılan sənədlərdən istifadə etmişik. Naxçıvanın qədim zamanlardan sakinləri olan Şahtaxtinskilərə aid bəy komissiyalarının verdiyi üç qərar vardır.

1859-cu ildə çar hökumətinin apardığı kameral siyahıya əsasən, Şahtaxtinskilər haqqında komissiyanın belə bir qərarı vardır: "1859-cu ildə aparılan siyahıya-almaya görə onlar bəy kimi qeyd olunmuşlar.

Komissiyanın üzvləri hamısı bir səslə hələ onların ulu babalarının da bəy olduğunu təsdiqləmişlər. Şahtaxtinskilərin Qazaxlar tayfasına mənsubluğunu və ulu babalarının Ağacir ağanın varisləri olduqlarını qeyd etmişlər. Bu nəsildən indiyədək heç kim bəylik hüququndan məhrum edilməmişdir" (6, s. 26).

Axırda komissiyanın qərarı vardır: "İrsi bəylikləri təsdiq edilsin" (6, s. 27). Mətləbə keçməzdən əvvəl deyək ki, "Qazaxlar" adına rast gələn yazarlar tələsib "Qazaxlar"ın Qazax rayonundan gəlmələrini yazırlar. Bu isə arxiv sənədlərində yazılanları təsdiqləmir. Çünki müxtəlif arxivlərdən tapdığımız sənədlər Qazaxlar tayfasının qədimlərdən Araz çayı vadisində yaşadığını bildirir (4, s. 46).

İkinci sənəddə bəy komissiyası araşdırma apararaq yazır ki, Ağacir ağa Şahtaxtinskinin varislərindən olan İsa Sultan Cümşüdlü nəslinin başçısıdır. Ona Sultan hərbi rütbəsi verilmiş və Şahtaxtı kəndi onun tiyul kəndidir. Bu sənəddə də onların bəylik hüquqları təsdiqlənir. Bir məsələ maraqlıdır ki, I İsa Sultan Qazaxlar tayfasının başçısı, həm də Cümşüdlü nəslinin ağsaqqalı kimi təsdiqlənmişdir. Rus hərbi diplomatı V.N.Qriqoryev 1833-cü ildə yazdığı "Naxçıvan əyalətinin statistik təsviri" monoqrafiyasında Kəngərlilərin nəsil tirələrini, yəni qollarını göstərmişdir. Həmin qollardan Yurdçu və Cümşüdlü Şahtaxtinskilərin soyadlarında öz əksini tapmışdır. Hazırda Kəngərli rayonunda olan Yurdçu kəndi də Şahtaxtinskilərə məxsus olmuşdur. Çoxlu sayda arxiv sənədlərini araşdırarkən məlum oldu ki, Cümşüdlü qolu yalnız Kəngərli tayfasına mənsubdur.

Üçüncü sənəddə isə Şahtaxtında yaşayan Ağayevlərin də Ağacir ağanın varisləri olması haqqında komissiyanın qərarı vardır (6, s. 39). XX əsrin əvvəllərində məşhur rus hərbçi şərqşünası K.N.Smirnov yazdığı monoqrafiyasında qeyd edir ki, Şahtaxtinskilər Kəngərli tayfasındandır (8, s. 51). Onun bu fikrini XXI əsrdə Moskvada yaşayan tədqiqatçı Fərhad Nağdəliyev də təsdiqləmişdir (7, s. 130). Aparılan tədqiqatlar söyləməyə əsas verir ki, Naxçıvan ərazisində yaşayan Qazaxlar tayfası ilə Kəngərli tayfası bir-birinə sıx bağlıdır. Yəni Şahtaxtinskilərin özü də Naxçıvan Kəngərliləridir.

Son vaxtlarda aparılan axtarışlar bir daha təsdiq etmişdir ki, Əli ağanın Behbud ağa, Əhməd ağa, Məmməd ağa, Mustafa bəy adlı oğulları, Maral, Fatma, Mələk adlı qızları olmuşdur.

Oğlanlardan böyüyü 1881-ci ildə doğulmuş Behbud ağadır. Onun həyatının, fəaliyyətinin bəzi məqamlarından danışmaq və bu böyük şəxsiyyətin ailəsi haqqında tapılan yeni məlumatları diqqətinizə çatdırmaq istəyirik.

Çox təəssüf ki, hələlik onun 1918-ci ilin dekabrına kimi təhsili və fəaliyyəti haqda geniş məlumata malik deyilik. Naxçıvanın ən çətin günlərində Behbud ağa Şahtaxtinski Şahtaxtı kəndinin müdafiəsində yaxından iştirak edib. Qeyd edək ki, Birinci Dünya müharibəsində Naxçıvan, Culfa və Şahtaxtı, bir növ Rusiyanın hərbi sursat anbarına çevrilmişdi. Mərhum tarixçi alim Əli Əliyev "Naxçıvanda Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə" kitabında yazır: "Qars, Sarıqamış əməliyyatı zamanı minlərlə

qırılan əsgər və hərbi sursat daşıyanlar arasında yüzlərlə Naxçıvan və Şərur-Dərələyəz qəzasının əhalisi var idi" (3, s. 6).

Arabaların hamısı Şahtaxtı gömrüyündən yola salınırmış. Behbud ağanın Qaçqınlar Komitəsinə başçılıq etməsi təbiidir. Çünki Naxçıvanda bu komitə, əsasən, diyarın ən varlı mülkədarı İbrahim ağa Şahtaxtinskinin vəsaiti ilə İrəvan qaçqınlarına yardım edirdi. Məqamındaca deyək ki, 1918-ci ildə Qaçqınlar komitəsinə Baxşəli ağa Şahtaxtinskinin də rəhbərlik etməsi haqqında məlumat vardır.

Əli Əliyev monoqrafiyasında daha sonra yazır: "Naxçıvanda imperialist müharibəsinə qarşı aparılan təbliğat işinə Naxçıvan "Hümmət" qrupu rəhbərlik edirdi" (3, s. 8). Deməli, Behbud ağa da bu qrupla birgə 1918-1920-ci illərdə də fəaliyyət göstərmişdir. Bu fikri Əli Əliyevin tədqiqatlarına əsasən deyirik. Tapılan bir arxiv sənədində naxçıvanlı demokratların əsas ideyavericisinin Behbud ağa olması haqda məlumat diqqətimizi çəkdi.

Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda sovet hökuməti qurulandan sonra bioqrafik məlumatlara görə, Behbud ağa yüksək vəzifələrdə çalışıb.

1922-ci ilin avqust ayında Bakıya qayıdan Behbud ağa Şahtaxtinski bir sıra məsul vəzifələrdə işləmişdir. Sonralar hansı səbəblərə görəsə Tiflisə getmiş və orada Ali Arbitraj Komissiyasında çalışmışdır. Sənədlərə əsasən, o, 1924-cü il may ayının 30-da guya ki, intihar etmişdir. Doğrudanmı, hər şey Behbud ağanın həyatında

belə adicə baş verib, yoxsa bütün bunlar uydurmalardır?

Bu günlərdə baxdığımız bir arxiv sənədi bütün bunların uydurma olduğunu ortalığa çıxarır. Yerindəcə qeyd edək ki, onun Tiflisdə olan arxiv sənədləri öyrənilib araşdırılmadığından çoxlu məsələlər bu gün də açılmamış qalır. Gürcüstan Milli Arxivində "Zaqafqaziya Seymi"nin sənədləri xüsusi fondda saxlanılır və çox zəngindir. Orada bizim naxçıvanlılarla, o cümlədən Behbud ağa haqqında öyrənilməmiş çox sayda əhəmiyyətli sənəd vardır.

Orijinalı Gürcüstanın keçmiş Partiya arxivində saxlanılan bir naxçıvanlının "xatirələri" yazılmış işin surəti Bakıda Siyasi Sənədlər və İctimai Hərəkatlar Arxivinə verilib. Xatirələr 1929-cu ildə yazılıb. Bu xatirə əslində Tiflisdə yüksək vəzifə sahibi olan Hamo Nazaretyana verilən məlumatdır. Xatirənin adı belədir: "Naxçıvan ölkəsində gizli partiya işinin yaranması tarixindən" (2). 1905-ci ildə Naxçıvanda "Hümmət" partiyasının yaranması və gizli fəaliyyəti haqqında yazan müəllif hər bir işin Tiflisdəki Avlabardan-erməni məhəlləsindən idarə olunduğunu göstərir. Hətta Tiflisdəki terror dəstəsinin başçısını da qeyd edir: Əşrəf Yüzbaşov (Yüzbaşyan). Yəqin ki, teatrşünaslar bu ada tez-tez teatr tamaşalarının müzakirəsinə aid sənədlərdə rast gəliblər. Amma onun terrorçu olduğunu heç ağıllarına da gətirməyiblər. Naxçıvanın 1920-ci ildən say-seçmə oğullarına divan tutan Əşrəf Yüzbaşov haqqında müəllif yazır: "...Скрылся товарищ Ашраф Юзбашев с другими террористами и благодаря их помощи т.т. не попали в руку Нахичеванской полиции" (yoldaş Əşrəf

Yüzbaşov başqa terrorçularla gizləndi və xoşbəxtlikdən Naxçıvan polisinin əlinə düşmədi) (2).

Deməli, daşnak terror qrupunun başçısının və onun dəstəsinin Naxçıvanda olmasını yazan müəllif, nəhayət, əsl mətləbə keçir: Behbud ağa Şahtaxtinskidən yazır.

Xatirədən çox qərəzli donosa bənzəyən xatirəsinin 4 səhifəsini Behbud ağaya həsr edib. Kəskin nifrətlə yazılıb. Burada hər şey bir cümlədə ortalığa çıxır: "...за что и поплатился своей жизнью" (bu ona həyatı bahasına başa gəldi) (2).

Aşkar görünür ki, Behbud ağanı öldürüblər, o, Naxçıvanda və Tiflisdə meydan sulayan daşnak terrorçuların qurbanı olub. Qərəzli xatirə müəllifinin yazdığı 30000 manat qızıl pula görə yox, elə beynəlxalq Qars müqaviləsinə görə. Bizcə, tədqiqat işi çox dərindən aparılsa, bu ehtimal yox, həqiqət kimi təsdiqlənəcək. Çünki o müqavilə ermənilərin arzusunu ürəyində qoyub, özü də əbədilik. Onlar bunu heç cür Behbud ağaya bağışlaya bilmirdilər. Məhz bu səbəbə görə Behbud ağanı başqa iş adı altında Tiflisə göndərmişdilər ki, terrorçular onu asanlıqla öldürə bilsinlər. Burada bir məsələ haqqında da demək yerinə düşərdi. Onun ikinci dəfə ailə qurduğu diş həkimi Ayna Əhmədbəyova ilə nikahı da çox müəmmalıdır. Arxiv sənədlərində həmin illərdə çekist Əhmədbəyov familiyası tez-tez nəzərə çarpır. Bütün bunlar söyləməyə əsas verir ki, Behbud ağanın intiharı uydurulmuş və qərəzli bir oyundur. Yəqin ki, Behbud ağanın tədqiqatçıları bu haqda öz sözlərini deyəcəklər.

Əli ağanın ikinci oğlu Əhməd ağa 1882-ci ildə

Şahtaxtı kəndində anadan olub. İsveçdə mühəndis təhsili alan Əhməd ağa 1937-ci ilədək Əzizbəyov neftdə baş mühəndis işləmiş və Suraxanıda yaşamışdır. 1937-ci ildə həbs edilmişdir. Arxiv sənədindən məlum olur ki, o, həbs ediləndə həyat yoldaşı Rübabənin 47, oğlanları Ənvərin 25, Mənsurun 23, Adilin 21, Təyyarın 9, qızı Bədirin isə 14 yaşı varmış (5).

Əhməd ağanın və oğlanlarının həyatı həbslər, təqiblər və sürgünlər içində keçmişdir. Əli ağanın üçüncü oğlu Məmməd ağa 1886-cı ildə Şahtaxtıda doğulsa da, öz ömrünü qürbətdə – Fransada yaşamalı olmuşdur. O, məşhur diplomat Aleksis Şahtaxtinskinin ata babasıdır. 1987-ci ildə Məmməd ağanın oğlu Cahangir ağa (Jan) Bakıya gəlib və İslam Mustafa bəy oğlu Şahtaxtinskinin (Ağayevin) qonağı olub. Birlikdə şəkil çəkdiriblər. Cahangir ağaya həmin ildə Naxçıvana gəlməyə icazə verməyiblər. Onun oğlu Ələsgərə (Aleksisə) Naxçıvana və Şahtaxtıya gəlmək qismət oldu.

Əli ağanın dördüncü oğlu Mustafa bəy haqqında hələlik ətraflı məlumat əldə etmək mümkün olmayıb. Onun fotoşəklini tapdıq. Mustafa bəyin oğul varisləri Şərurda və Bakıda yaşayırlar.

Faidə xanım Şahtaxtinskaya uzun illərdir ki, ulu əcdadlarına məxsus sənədləri və foto-şəkilləri toplayır. Onun verdiyi məlumata görə 1987-ci ildə görkəmli alim Abbas Zamanov öz evində Fransadan gələn Şahtaxtinskilərə ziyafət verir. Çünki Behbud ağanın bacısı qızı Asya xanım A.Zamanovun ömür-gün yoldaşı idi. Həmin ziyafətdə olan Əhməd ağanın qızı Bədir xanımın

dediyinə görə Behbud ağa Şahtaxtinski birinci dəfə özünün yaxın qohumu Həmid ağa Şahtaxtinskinin bacısı ilə ailə qurmuş və bu nikahdan Mahmud adlı oğlu və Səfiyyə, Şəfiqə adlı qızları olmuşdur. Mahmudun oğlu Faiq erkən dünyasını dəyişmiş, digər oğlu Ələkbər isə Odessada yaşamışdır. Qohumlarının dediyinə görə, varisləri Odessada, yaxud Kiyevdə yaşayırlar. Biz bu istiqamətdə axtarışlarımızı davam etdiririk.

Naxçıvan tarixinə, eləcə də bu qədim torpaqdan çıxmış görkəmli şəxsiyyətlərə dair Rusiyanın və Gürcüstanın arxivlərində xeyli sayda sənədlər toplanmışdır. Məqsədimiz həmin sənədləri tapıb Naxçıvana gətirmək, araşdırmaq və nəşr etdirib oxuculara çatdırmaqdır.

**Musa QULİYEV**
AMEA Naxçıvan Bölməsinin
elmi işçisi

## *ƏDƏBİYYAT*

1. ASE, X cild. Bakı; 1987, s. 608.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), Fond 1, siyahı 8, iş № 4188.
3. Əliyev Ə. Naxçıvanda Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə. Bakı, 1960, s. 38.
4. Хозяйственные очерки части Аракской долины,

вошедшей в состав Грузино – Имеретинской губернии. СПб, 1843.
5. İsayev E. Cəllad etirafı. Bakı, 1997.
6. Naxçıvan MR Dövlət Arxivi. Fond 314, siyahı 5, iş 5, s. 26-27, 39.
7. Нагдалиев Ф.Ф. Ханы Нахичеванские в Российской Империи. Москва: Новый Аргумент, 2006, 432 с.
8. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 156 с.

## QARS BEYNƏLXALQ MÜQAVİLƏSİNİN TARİXİ ƏHƏMİYYƏTİ

Azərbaycanın 1920-ci il 28 aprel və 1922-ci il 30 dekabra qədər olan dövrü, həm daxili həm də xarici vəziyyət baxımından, ictimai-iqtisadi, siyasi münasibətlərin qeyri-müəyyən və ziddiyyətli olması ilə xarakterizə olunur.

Müstəqil Sovet Azərbaycanı əhvali-ruhiyyəsi, eyforiyası yavaş-yavaş sönməkdə idi.

Tarixi araşdırmalar göstərir ki, indiyədək (sovet hakimiyyəti illərində. İ.K.) tarixi ədəbiyyatlarda yazıldığı kimi, Naxçıvan diyarında Sovet hakimiyyətinin qələbəsini yalnız XI Qızıl Ordu hissələrinin adı ilə bağlamaq tarixi həqiqətlərə heç də uyğun deyildir. Azərbaycanda olduğu kimi Naxçıvanda da Sovet hakimiyyətinin qələbəsi, Naxçıvana məhz Azərbaycan SSR tərkibində muxtariyyət verilməsi, əvvələn ona görə mümkün olmuşdur ki, Naxçıvan əhalisi hələ 1917-1920-ci illərdə hər cür məhrumiyyətlərə dözərək doğma torpağın erməni təcavüzkarlarının tapdağı altına düşməməsi üçün nə lazımdırsa etmişdir.

Naxçıvan əhalisi istər qondarma Ermənistan Respublikasının, istərsə də onların güclü hamilərinin hakimiyyətini heç vaxt qəbul etməmişdilər. Tarix təkrar olunur fikrini obyektiv gerçəklik kimi qəbul edirəm. Ona görə ki, XX yüzilliyin əvvəllərində erməni-birləşmiş qüvvələrinə (bolşevik-daşnak. İ.K) qarşı xüsusi mübarizə aparan taborlar yaradan

Naxçıvan əhalisi silaha sarılaraq ata-baba yurdlarının keşiyində ayıq-sayıq durmuşdular.

Tarixi proseslərə diqqət yetirsək görərik ki, XX yüzilliyin əvvəllərində Azərbaycan torpaqları hesabına özlərinə "respublika" yaratmış ermənilər əgər Naxçıvan diyarına da yiyələnsəydilər, o zaman heç şübhəsiz ki, bu yerlərin əhalisini də Zəngəzurun, Basarkeçərin, Göyçənin və digər Azərbaycan torpaqlarında yaşamış azərbaycanlı əhalinin acı taleyi gözləyəcəkdi.

Qeyd etdiyimiz proseslər XX yüzilliyin sonlarında təkrarlandı. Sovet Rusiyasının köməkliyi ilə erməni daşnakları yenidən Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə çıxış etdilər. Dağlıq Qarabağ və ətraf rayonlar işğal edildi, 20% torpağımız təəssüflər olsun ki, hələ də işğal altındadır. Bu ədalətsizliyə dünya ölkələri susur. XX yüzilin əvvəllərində Azərbaycan torpaqları, o cümlədən Naxçıvan hesabına "böyük erməni dövləti" yaratmaq planının həyata keçirilməsinə ABŞ, Böyük Britaniya, Fransa dövlətləri ilə yanaşı Sovet Rusiyası da fəal surətlə kömək etməyə səy göstərmişdir. XI Qızıl ordu hissələri işğalçılıq yürüşü ilə Azərbaycanda müstəqil dövlətin varlığına son qoyduqdan sonra bu sərsəm cəhdlər özünün ən yüksək zirvəsinə çatmış və yalnız Naxçıvan əhalisinin sayıqlığı, kamalçı Türkiyənin fəal diplomatik və hərbi yardımı bu mənfur planı həyata keçirmək istəyənlərin arzusunu ürəyində qoymuşdur.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin qeyd etdiyi kimi, əgər Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının Zəngəzur

mahalının vaxtilə Ermənistana verilməsi olmasaydı, bəlkə də, heç Naxçıvanın muxtariyyəti də lazım deyildi. Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi. (8 səh.75)

Bu tarixi faktdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra xalqımızın bütün sahələrdə vəziyyəti son dərəcə kəskinləşdi. Xalq Cümhuriyyətinin bolşeviklər qarşısında qoyduğu öhdəliklərinin heç birinə əməl olunmadı.

Stalinin 1920-ci ilin noyabrında Bakıda "mötəbər partiya" müşavirəsində bəyan etdiyi "Kommunist partiyasından müstəqil olmaq olmaz" tezisindən sonra, tədricən "yeni sovet respublikalarının müstəqilliyi defenisiyası" məhdudlaşdırılır və onlar getdikcə də sərtləşən inzibati amirlik səviyyəsində idarə olunur, birinci növbədə onların xarici siyasəti (1 səh.56) sovet Rusiyası rəsmi şəxsləri tərəfindən tənzimlənirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin vaxtilə Gürcüstanda, Ermənistanda, İranda, İstanbulda, Ukraynada, Krımda, Kuban və Donda, Petrovskidə, İrkutskidə, və başqa yerlərdə açdığı diplomatik qurumların fəaliyyəti dayandırıldı.

"Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün Naxçıvana, Qarabağa və Zəngəzura sadəcə olaraq iddia etməklə kifayətlənməyən ermənilər, bu torpaqlar uğrunda mübarizədə nəinki, hərbi, həm də siyasi vasitələrdən maksimum istifadə etməyə çalışaraq, özünün sovet Azərbaycanına düşmən olan Antanta dövlətlərinin Cənubi Qafqazdakı müttəfiqi obrazını da yaratmağa səy göstərirdi.

Sevr müqaviləsindən (27 aprel 1920-ci il) sonra Antanta dövlətlərinə arxalanan daşnak Ermənistanı (İngiltərə, Fransa və İtaliya kimi ölkələrə) yeni ərazilər ələ keçirmək məqsədi ilə 24 sentyabr 1920-ci ildə Türkiyə ilə müharibəyə başlayır. Türkiyə ordusunun əks-hücumu daşnak ordusunun darmadağın olması ilə nəticələnir. Həmin ilin noyabrın 18-də daşnaklar məğlub olduqlarını etiraf etməyə məcbur olub, 2 dekabr 1920-ci ildə Gümrü müqaviləsini bağlayırlar. Daşnaklar xəyallarındakı qurduqları "Böyük Ermənistan"ın ərazisinin İrəvan və Göyçə gölü ilə məhdudlaşdığını təsbit etmiş müqaviləyə imza atırlar. Gümrü müqaviləsinin 2-ci maddəsində Naxçıvan, Şahtaxtı və Şərur bölgəsində bu yerlərin idarə formasını müəyyən edəcək plebissitin keçirilməsinə qədər, Türkiyənin himayəsi altında yerli özünüidarəetmənin yaratdığı və Ermənistanın bu bölgənin daxili işlərinə qarışa bilməyəcəyi təsbit edilmişdir (6. v.86). Bu müqavilədən sonra – Antanta dövlətlərinin əlaltısı olan daşnak Ermənistanı üzərində qələbəsindən sonra Türkiyə ilk dəfə Naxçıvanın özünüidarəetmə hüququna nail olmasına kömək etdi.

Sovet Rusiyası tərəfindən daşnak Ermənistanın dəstəklənməsi o qədər böyük əhəmiyyət kəsb edirdi ki, hətta hərbi və siyasi müttəfiqi olan Sovet Azərbaycanının özünün ərazi bütövlüyünü bərpa etməsinin qarşısını sərtliklə almaqdan belə çəkinmirdi.

1920-1921-ci illərdə Türkiyə Cənubi Qafqazda öz nüfuz dairəsini yüksəltmək, Azərbaycan, Ermə-

nistan, Gürcüstan Respublikaları ilə problemlərini xüsusən də ərazi məsələlərini həll etmək üçün ikitərəfli müqavilələr bağlamağa çalışırdı. Lakin Rusiyanın Qafqazda yeritdiyi ağır müstəmləkəçilik siyasəti buna mane olurdu.

1922-ci il yanvarın 26-da Ankara hökumətinin Xarici İşlər naziri Y.Kamal bəy Azərbaycanın Türkiyədəki diplomatik nümayəndəsi İ.Əbilovla söhbətində qeyd etmişdi ki, "RSFSR-lə müqavilə bağlamaq üçün Moskvaya (1921-ci ilin martında bağlanmış Moskva müqaviləsi nəzərdə tutulur) gedərkən biz Azərbaycanla, sonra isə Gürcüstanla və nəhayət Ermənistanla müqavilələr imzalamaq niyyətindəyik. Təəssüf ki, Azərbaycanda bu məsələyə bizim gözlədiyimiz kimi yanaşmadılar." (9.v.37)

Rusiya Qafqazda Türkiyənin nüfuzunun güclənməsinin qarşısını almaq üçün vahid müqavilə bağlamağı təklif edirdi.

Nəhayət, uzun sürən müzakirələrdən sonra konfransın Qarsda keçirilməsi razılaşdırıldı. AK (b) PMK Siyasi Bürosunun 1921-ci il 26 avqust tarixli qərarı ilə B.Şahtaxtinski Azərbaycan SSR-in konfransdakı nümayəndəsi təyin olundu. (5.v.84)

1921-ci il sentyabrın 26-sı ilə oktyabrın 13-ü arasında keçirilən Qars konfransının iclaslarının protokollarının, stenoqramlarının təhlili göstərir ki, danışıqlar çox mübahisəli və gərgin keçmişdir. (6. İş 81)

Türkiyə tərəfi konfransda Cənubi Qafqaz Respublikaları ilə ayrı-ayrılıqda müqavilə bağlamağı təklif

etsə də, danışıqlarda vasitəçi rolunda iştirak edən Rusiya və əks tərəflər buna razı olmamışdılar. Konfransda Azərbaycanın nümayəndəsi kimi iştirak edən görkəmli diplomat B.Şahtaxtinski isə vahid müqavilənin bağlanmasını Cənubi Qafqaz Respublikaları və Türkiyə üçün qarşılıqlı faydalı olduğunu bildirmişdir.

Gərgin keçən müzakirə və mübahisələrdən sonra 1921-ci il oktyabrın 13-də imzalanan Qars müqaviləsinin 5-ci maddəsi (2. vər. 122-125) və 3-cü əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiq etdi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Həmin maddədə yazılırdı ki, Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən olunan sərhədlərdə Azərbaycanın himayəsi altında Muxtar ərazi təşkil edir.

Xalqımızın Ümummilli lideri çox böyük uzaqgörənliklə deyirdi: *"Naxçıvanın muxtariyyəti tarixi hadisədir. Bu çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə, Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir. Belə ağır şəraitdə Naxçıvanın yaşamasının, inkişaf etməsinin əsas şərtlərindən biri də odur ki, Naxçıvana o vaxt Muxtariyyət hüququ veriblər. Bu Muxtariyyət hüququ*

*bu çətin vəziyyətdə yaşamaqda, inkişaf etməkdə Naxçıvana böyük şərait yaradıbdır. Amma, Naxçıvanın bundan sonra da buna ehtiyacı vardır, müstəqil Azərbaycan dövlətinin içində buna ehtiyacı vardır."*

Konfransda Türkiyə tərəfindən BMM deputatı, Şərq cəbhəsi komandanı Kazım Qarabəkir Paşa, Buldur millət vəkili Vəli bəy, ictimai işlər üzrə sabiq nazir Muxtar bəy və Türkiyənin Azərbaycandakı nümayəndəsi Məmduh Şövkət bəy, Ermənistan tərəfindən xarici işlər komissarı Askinaz Mravyan, daxili işlər komissarı Poqos Maqinzyan, Azərbaycan fəhlə-kəndli nəzarəti komissarı Behbud Şahtaxtinski, Gürcüstan tərəfindən quru və dəniz qüvvələri komissarı Salva Eliva, daxili və maliyyə işlər komissarı Aleksandr Şvanidze və RSFSR tərəfdən Rusiyanın Latviya Respublikasındakı səlahiyyətli nümayəndəsi Yakov Qanetski iştirak edirdi. (10.v.136-141)

20 maddə 3 əlavədən ibarət olan sənəddə həmçinin göstərilirdi ki, Naxçıvan ərazisinin Türkiyə ilə sərhədi Arazdəyən stansiyasına qədər 11 km. uzunluğunda müəyyən edilmiş, İranla sərhədi isə 176 km. uzunluğunda, yəni 1828-ci il Türkmənçay müqaviləsində müəyyən olunduğu kimi dəyişilmədən saxlanılmışdır.

Türkiyə Naxçıvan məsələsinə xüsusi əhəmiyyət verirdi. Qeyd etmək lazımdır ki, Türkiyə Cümhuriyyətinə aid olan vilayətinin Aralıq-Dilucu məntəqəsi ilə Naxçıvanın Sədərək kəndi arasından keçən Araz çayı vasitəsilə sərhəd təşkil edən həmin 11 kilometrlik

məsafə mühüm strateji əhəmiyyətə malik olduğu üçün XX əsrin əvvəllərində istiqlal savaşı dövründə Mustafa Kamal Atatürk tərəfindən İran hökumətindən qızıl pul ödənilməklə savaşsız olaraq alınmışdır. Bu fakt Atatürkün Azərbaycana və onun ayrılmaz parçası olan Naxçıvana sonsuz sevgisinin olduğunu göstərirdi. Çox böyük uzaqgörənliklə Atatürk deyirdi: "Naxçıvan türk dünyasının qapısıdır. Onu qorumaq lazımdır".

Sərhədlər müəyyən olunarkən 1868-ci ildə Qafqaz Hərbi Dairəsi tərəfindən nəşr edilmiş İrəvan quberniyasının Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarının coğrafi-geoloji xəritəsi əsas götürülmüşdür.

Qars müqaviləsi Naxçıvanın gələcək siyasi-hüquqi statusunu müəyyənləşdirdi.

Müqavilə Azərbaycan SSR MİK tərəfindən 3 mart 1922-ci ildə, Türkiyə BMM tərəfindən 16 mart 1922-ci ildə, Ermənistan SSR MİK tərəfindən 20 mart 1922-ci ildə, Gürcüstan SSR MİK tərəfindən 14 iyun 1922-ci ildə ratifikasiya edildi.

RSFSR-in iştirakı ilə ratifikasiya fərmanlarının mübadiləsi 11 sentyabr 1922-ci ildə İrəvanda keçirildi və həmin vaxtdan da qüvvəyə mindi. (7.s. 429)

Qars müqaviləsinin tarixi əhəmiyyəti bir də ondan ibarətdir ki, müqavilə XX əsrdə Türkiyə ilə Azərbaycan üçün verdiyi çox mühüm sənəd idi. O, nəinki Türkiyə üçün böyük təhqir olan Sevr müqaviləsini iflasa uğratdı, habelə Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında münasibətləri tənzimlədi.

Beləliklə, Türkiyə dövlətinin köməyi ilə və mahir

diplomat B. Şahtaxtinskinin düşünülmüş siyasi gedişləri nəticəsində Moskva və Qars kimi mühüm əhəmiyyət daşıyan müqavilələrdə Naxçıvanın taleyi həll olunmuşdur.

Zaqafqaziya Diyar Komitəsinin 12 dekabr 1922-ci il tarixli qərarı ilə, Naxçıvan Muxtar vahid kimi Azərbaycanın ayrılmaz tərkib hissəsi elan edildi. (4. v.130)

Bir tarixi faktı qeyd edək ki, Qars müqaviləsi müddətsiz bağlansa da ermənilər tərəfindən onun qüvvədən salınmasına cəhdlər edilmişdir. 1989-cu ilin noyabrında daşnak partiyasının İrəvanda keçirdiyi "ümumerməni" milli qurultayında Moskva və Qars müqavilələrinə yenidən baxılması, hətta onların ləğvi tələb olunmuşdur. Qars müqaviləsi qüvvədən salınmasa da rəsmi Moskvanın himayəsi nəticəsində ermənilər tərəfindən dəfələrlə pozulmuşdur. Müqavilə təsdiqləndikdən bir az sonra Dərələyəz əhalisinin Güney Azərbaycanda və Naxçıvan bölgəsinin digər yerlərində qaçqın olmasından istifadə edilərək bu ərazilər Ermənistana birləşdirildi (13,s.315)

Bir neçə ildən sonra isə heç bir əsas olmadan Naxçıvan Muxtar Respublikasının sərhədlərinə yenidən baxıldı. Belə ki, Qars müqaviləsində əsas tərəflərdən biri olan Türkiyə dövlətinin razılığı və iştirakı olmadan Zaqafqaziya sovetləri MİK Rəyasət heyətinin 1929-cu il 18 fevral tarixli qərarı (protokol 3, bənd 3) ilə bölgənin 657 kv.km. sahəsi (Şərur qəzasının Qurd qulaq, Xaçik, Horodiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Almalı, Dağ Almalı, İtqıran,

Sultanbəy kəndləri, Ordubad qəzasının Qərçivan sovetliyinə daxil olan Mehri, Buğakər yaşayış məntəqələri, habelə Kilit kəndinin bir hissəsi) Ermənistana verildi (3. v. 18.24).

Sədərək və Kərki kəndləri ətrafındakı müəyyən ərazilər də Ermənistana verildi. 1929-1931-ci illərdə Əldərə, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış sahələrinin Ermənistana verilməsi və həmin ərazidə Mehri rayonunun yaradılması nəticəsində Naxçıvan bölgəsi Azərbaycanın digər bölgələrindən ayrı salındı. 1980-ci illərin ortalarında Ordubad rayonu Kotam və Kilit kəndləri torpaqlarının bir hissəsi Ermənistana "bağışlandı". 1991-ci ildə isə Şərur rayonunun Kərki kəndi erməni silahlı qüvvələri tərəfindən işğal olundu.

Bunlar hamısı Moskva və Qars müqavilələrinin kobudcasına pozulması, beynəlxalq müqavilələr haqqında 1969-cu il Vyana konvensiyasına və 1975-ci il Helsinki müşavirəsinin yekun aktına münasibətdə saymazlıq kimi qiymətləndirilməlidir.

Vyana Konvensiyasının 26-cı maddəsinə əsasən "qüvvədə olan hər bir müqavilə onun iştirakçıları üçün məcburidir və onlar tərəfindən vicdanla yerinə yetirilməlidir". 27-ci maddəyə əsasən "müqavilənin iştirakçısı öhdəliklərini yerinə yetirməyərək özünə bəraət qazandırmaq üçün daxili qanunvericiliyə istinad edə bilməz".

1921-ci ildə bağlanmış Qars müqaviləsi bu gün qüvvədə olduğundan Vyana Konvensiyasının müddəaları Naxçıvan Muxtar Respublikasının itirilmiş

torpaqlarına olan hüququna şamil edilir.

Azərbaycan qeyd etdiyimiz qanuni hüquqlarına söykənərək zaman-zaman itirilmiş ərazilərini bərpa edəcək.

**İbrahim KAZIMBƏYLİ**
Tarix üzrə fəlsəfə doktoru

## *ƏDƏBİYYAT*

1. Azərbaycan tarixi 7 cilddə. 6-cı cild (aprel-1920-iyun 194) Bakı – Elm – 2000
2. Azərbaycan Respublikası MDA, fond 28. Siyahı 1, iş 81
3. Azərbaycan Respublikası MDA, fond. 1009, siyahı 1, iş 6. v. 18, iş 14. V.22
4. Azərbaycan Respublikası SPİH MDA, fond. 1. Siyahı 2 , iş 16, vərəq 84
5. Azərbaycan Respublikası SPİH MDA, fond 1, siyahısı 85, iş 215, vərəq.130
6. ARDTA, fond 28, siyahı 1, iş 55, vərəq 86
7. Документы внешней политики СССР. Т. IV, Москва, 1963
8. Əliyev H. Müstəqilliyimiz əbədidir. Bakı; Azərnəşr, 2005
9. Naxçıvan. MRDA. Fond 28, siyahı 1, iş 207, vərəq 37
10. Naxçıvan MRDA, fond 28, siyahı 1, iş 81, vərəqə 136-141
11. Qars müqaviləsi. Azərbaycan, rus, türk və fransız

dillərində. Tərtib edəni və ön sözün müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı, 2004, 84 s.
12. Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində) Naxçıvan. "Əcəmi", 2004, 139 s.
13. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), Bakı, 1996.328.s.
14. Sadiqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı, 1995, 144 s.

# MÜNDƏRİCAT

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı**...... 3
**İsa Həbibbəyli.**Behbud ağa Şahtaxtinskinin dövlətçilik fəaliyyəti və siyasi mübarizəsi......... 12
**İsmayıl Hacıyev.** Behbud ağa Şahtaxtinskinin diplomatik fəaliyyəti və Naxçıvan məsələsi ..... 30
**Əbülfəz Quliyev.** Behbud ağa Şahtaxtinskinin jurnalistlik fəaliyyəti və publisistikası ............. 44
**Emin Şıxəliyev.** Qars müqaviləsi və Naxçıvanın muxtariyyət statusu ............................................ 53
**Musa Quliyev.** Behbud ağa Şahtaxtinski haqqında yeni araşdırmalar................................ 65
**İbrahim Kazımbəyli.** Qars Beynəlxalq müqaviləsinin tarixi əhəmiyyəti ....................... 75

Naxçıvan Muxtar Respublikası
Ali Məclisi

# BEHBUD AĞA ŞAHTAXTİNSKİ VƏ QARS MÜQAVİLƏSİ

*(12 oktyabr 2011-ci ildə Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfransın materialları)*

Yığılmağa verilmiş 28.11.2011.
Çapa imzalanmış 26.01.2012.
Formatı 60X90 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 5,5 ç.v.
Sifariş № 181. Tiraj 300 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.